## Beynəlxalq Cinayət Məhkəməsi Putinin həbsinə order verib



**Beynəlxalq Cinayət Məhkəməsi (BƏM) Rusiya Prezidenti Vladimir Putinin həbsinə order verib.**

APA xəbər verir ki, bu barədə Haaqa məhkəməsinin saytında yerləşdirilmiş məlumatda qeyd olunub. Bildirilib ki, BƏM Ukraynadakı müharibə kontekstində iki nəfərin - Rusiya Prezidenti Vladimir Vladimiroviç Putinin və Mariya Alekseyevna Lvova-Belovanın həbsinə order verib.

Əlavə edilib ki, Rusiya Prezidenti Vladimir Putin 24 fevral 2022-ci il tarixindən sonra Ukraynanın işğal edilmiş ərazilərindən əhalinin (uşaqların) qanunsuz deportasiyası və qanunsuz olaraq Rusiyaya köçürülməsi kimi hərbi cinayətə görə məsuliyyət daşıyır. Açıqlamada vurğulanıb ki, Rusiya Prezidenti Vladimir Putinin yuxarıda qeyd olunan cinayətlərə görə fərdi cinayət məsuliyyəti daşıdığını düşünmək üçün ağlabatan əsaslar var.

*Məhkəmə, həmçinin analoji ittihamlarla Rusiyanın Uşaq Hüquqları üzrə Müvəkkili Mariya Alekseyevna Lvova-Belovanın həbsinə order verib.*


№ 50 (5811) 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 18 mart 2023-cü il (şənbə)




## Dövlət sərhədi etibarlı əllərdədir

### Azərbaycana gəlmək istəyən 771 nəfər arzuolunmaz şəxs qismində saxlanılaraq geri qaytarılıb

**Dövlət sərhədindən keçməyə hüquq verən sənədləri olmayan (qüsurlu sənəd) 6,2 min nəfər barəsində müvafiq qərarlar qəbul edilib.**

Bu barədə Nazirlər Kabinetinin 2022-ci ildə fəaliyyəti haqqında Hesabatında qeyd edilib.

Xaric olunma faktı ilə 935 nəfər və ekstradisiya faktı üzrə 73 nəfər qeydə alınıb. Xarici ölkələrdən Azərbaycan Respublikasına gəlmək istəyən ümumilikdə 375 halda 771 nəfər arzuolunmaz şəxs qismində saxlanılaraq geri qaytarılıb.

Ölkədən çıxışlarına dair məlumatın olmadığı üçün 251 nəfər və digər səbəblərdən 15 nəfər şübhəli şəxs qismində saxlanılıb.



## Prezident Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

### İlham Əliyev: "Quruculuq işləri və əhalimizin qayıdışı ilə yenidən canlanan həyat yazın gəlişinə xüsusi ab-hava qatır"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib.**

***Təbrikdə deyilir:***

"Hörmətli həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə bahar əhval ruhiyyəsi, cansağlığı və gələcək işlərinizdə nailiyyətlər arzulayıram. Azərbaycan torpağında çox qədim kökləri olan Novruz bayramı əcdadlarımızın indiki nəsillərə müqəddəs yadigarıdır.

(səh.2)

## Baş nazir sudan maksimum səmərəli istifadə etməyə çağırıb

### Əli Əsədov deyib ki, hazırda su təhlükəsizliyi məsələsi ən aktual mövzulardan birinə çevirilib



**Milli Məclisin dünənki iclasında Nazirlər Kabinetinin 2022-ci ildəki fəaliyyətinə dair hesabat dinlənilib.**

Nazirlər Kabinetinin 2022-ci ildəki fəaliyyətinə dair hesabatı Baş nazir Əli Əsədov təqdim edib.

(səh.2)

# Xüsusi karantin rejimi uzun müddət davam etməyəcək

### Növbəti mərhələdə quru sərhədlərin açılması ilə bağlı müsbət qərar veriləcək



**Baş nazirin müavini Şahin Mustafayev quru sərhədlərinin açılması məsələsinə münasibət bildirib. Şahin Mustafayev deyib ki, Operativ Qərargah tərəfindən mövcud epidemioloji vəziyyətə uyğun olaraq qərarlar qəbul olunur.**

Baş nazirin müavini bu məsələ ilə bağlı dəqiq vaxt deyə bilməyəcəyini qeyd edib.

Şahin Mustafayevin sözlərinə görə, vəziyyətə uyğun müvafiq qərar qəbul olunacaq. Qeyd edək ki, Ümumdünya Səhiyyə Təşkilatı Pandemiyanın bitdiyini elan etsə də, Azərbaycanda koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycanın ərazisində xüsusi karantin rejiminin müddəti 2023-cü il mayın 1-i saat 06:00-dək uzadılıb.

Əksər ölkələrdə isə mərhələli şəkildə koronavirusla bağlı qadağalar aradan qaldırılıb. Azərbaycanda da COVID-19-la bağlı qadağaların əksəriyyəti ləğv olunsa da, quru sərhədlərin açılması ilə bağlı qərar yoxdur.

Biz mərhələli şəkildə və epidemioloji vəziyyətə uyğun olaraq quru sərhədlərin açılmasını təklif edirik.

(səh.3)

## "İnşallah, bu dövləti idarə etmək bizə nəsib olacaq"

### Sinan Oğan: "Prezident mən də olsam, Kılıçdaroğlu da seçilsə, Türkiyənin Azərbaycan siyasəti dəyişməz"



**Türkiyədə prezidentliyə namizəd olanların arasında əslən azərbaycanlı Sinan Oğan da var. Sağ partiyalardan ibarət yeni siyasi koalisiya - "ATA İttifaqı" seçkilərdə Sinan Oğanın namizədliyini irəli sürüb.**

Sağ bloka Zəfər Partiyası (Umut Özdağ), Ədalət Partiyası, Doğru Partiya, Türkiyə İttifaqı Partiyası və Ölkəm Partiyası daxildir. Bu, Türkiyədə formalaşdırılmış dördüncü siyasi koalisiyadır.

(səh.5)



## Ankara Finlandiyanın NATO-ya üzvlüyünə "hə" deyib

### Türkiyə parlamentində ratifikasiya proseduru başlayacaq

**Türkiyə Finlandiyanın NATO-ya üzvlüyünə "hə" deyib.**

Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada finlandiyalı həmkarı ilə birgə mətbuat konfransında bildirib.

Ərdoğan qeyd edib ki, Finlandiyanın NATO-ya üzvlüyü ilə bağlı Türkiyə parlamentində ratifikasiya proseduru başlayacaq. Ərdoğan bildirib ki, Türkiyənin minlərlə vətəndaşı terror qurbanı olub.

(səh.2)

## Mina terroru ən təhlükəli məsələ olaraq qalmaqdadır

### Bu, uzun illər Azərbaycan xalqı üçün problemə çevriləcək



**44 günlük Vətən müharibəsindən iki ildən çox vaxt ötsə də, Ermənistan yenə də ölkəmizə qarşı mina terrorunu davam etdirir.**

Ötən gün Ağdam rayonunun Yusifcanlı kəndi ərazisində iki mülki şəxsin minaya düşərək həlak olması Ermənistanın mina terrorunun miqyasını və doğurduğu təhlükəni bir daha göstərdi. Müharibədən sonra ümumilikdə 300 nəfərə yaxın şəxs mina terrorunun qurbanı olub. Bu faktın özü Ermənistanın mina terrorunu getdikcə genişləndirdiyini, terrorun fəsadlarının yaxın gələcəkdə də daha da arta biləcəyini göstərir.

(səh.4)

## Polis aman vermir

### Fransada insanlara divan tutulur, beynəlxalq təşkilatlar susur



**Fransada pensiya islahatına qarşı etiraz aksiyaları davam edir.**

Fransa Baş naziri Elizabet Borne pensiya yaşının 62-dən 64-ə qaldırılmasını nəzərdə tutan islahatla bağlı qanun layihəsinin səsvermə yolu ilə qəbul edilməsinə qərar verib. Bundan sonra islahat əleyhdarları Paris küçələrinə axışıblar.

(səh.5)



## "Qoy danışsınlar, vecimə də deyil, 2-3 gündür reytinqim lap qalxıb"

Novella Cəfəroğlu: "Mənim üstünlüyüm həmişə bu olub ki, sözümü nə zaman lazım oldu, demişəm"

(səh.4)



## "Mənim kimləsə şəxsi-qərəzim yoxdur"

Mələykə Abbaszadə: "Əgər kiminsə mənimlə şəxsi-qərəzi varsa, açıq deyə bilər"

(səh.2)

# Prezident Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

## İlham Əliyev: “Quruculuq işləri və əhalimizin qayıdışı ilə yenidən canlanan həyat yazın gəlişinə xüsusi ab-hava qatır”



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib.**

*Təbrikdə deyilir:*

”Hörmətli həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə bahar əhval ruhiyyəsi, cansağlığı və gələcək işlərinizdə nailiyyətlər arzulayıram.

Azərbaycan torpağında çox qədim kökləri olan Novruz bayramı əcdadlarımızın indiki nəsillərə müqəddəs yadigarıdır. Zamanın bütün sınaqlarından çıxaraq əsrlərin yaddaşında silinməz izlər qoyan bu el bayramı uzaq dövrlərdən bəri xalqımızın mənəvi dünyasının dərinliklərinə nüfuz etmiş, ənənəvi dəyərlərimizin təşəkkülündə mühüm rol oynamışdır. Ulu babalarımızın zəngin daxili aləmi, müdrik həyat fəlsəfəsi və gələcəklə bağlı işıqlı arzuları bahar bayramında dolğun təcəssümünü tapmışdır.

Ülvi bəşəri hisslərin daşıyıcısına çevrilən, yeniləşdirici gücə malik Novruz bayramı bu gün də insanlar arasında səmimi münasibətlərə yol açaraq dostluq, mərhəmət və xeyirxahlıq duyğularını möhkəmləndirir, cəmiyyətimizin vahid məfkurə ətrafında inkişafının ahəngdarlığını təmin edir. Milli varlığımızın ayrılmaz parçası saydığımız və yad təsirlərdən qoruduğumuz Novruz ənənələri mənəvi sərvətlərimizə hörmətlə yanaşmağımızın yüksək ifadəsi, eyni zamanda bəşər mədəniyyəti xəzinəsinə qiymətli töhfəmizdir.

Xatirəsini daim minnətdarlıqla andığımız şəhidlərimizin öz canları, qanları bahasına azadlıq bəxş etdikləri əzəli torpaqlarımızda gerçəkləşdirilən irimiqyaslı layihələr, geniş vüsət alan quruculuq işləri və əhalimizin doğma yurdlara qayıdışı ilə yenidən canlanan həyat yaz fəslinin Odlar diyarına builki gəlişinə xüsusi ab-hava qatır və rəmzi məna qazandırır.

Ölkəmizin hüdudlarından uzaqlarda yaşayan, qəlbi vətən sevgisi ilə döyünən və baharı bizimlə birgə qarşılayan soydaşlarımıza bayram salamlarımı yetirirəm.

Bu əlamətdar bayramın hər evə, hər ocağa yeni sevinc, bol ruzi-bərəkət və firavanlıq gətirməsini arzu edirəm.

**Novruz bayramınız mübarək olsun!”**

# Baş nazir sudan maksimum səmərəli istifadə etməyə çağırıb

## Əli Əsədov deyib ki, hazırda su təhlükəsizliyi məsələsi ən aktual mövzulardan birinə çevirilib

**Milli Məclisin dünənki iclasında Nazirlər Kabinetinin 2022-ci ildəki fəaliyyətinə dair hesabat dinlənilib. Nazirlər Kabinetinin 2022-ci ildəki fəaliyyətinə dair hesabatı Baş nazir Əli Əsədov təqdim edib. Baş nazir bildirib ki, Nazirlər Kabinetində il ərzində 462 qərar qəbul edilib və 820 sərəncam imzalanıb.**



Əli Əsədov bildirib ki, Azərbaycandakı inflyasiya əsasən idxal edilmiş inflyasiyadır: ”2022-ci ildə dövlət büdcəsinin gəlirləri təxminən 31 mlrd. manat, xərcləri isə 32 mlrd. manat icra olunub. Fiskal tənzimləmə çərçivəsində 2022-ci ilin yanvarın 1-dən təkmilləşdirilmiş büdcə qaydasının tətbiqi bərpa edilib. Büdcə qaydası büdcənin neft gəlirlərindən asılılığın mərhələlərlə aradan qaldırılmasına, fiskal dayanıqlığın və maliyyə intizamının gücləndirilməsinə töhfə verməklə yanaşı, Dövlət Neft Fondunun aktivlərinin hədəflənən səviyyələrdə qorunmasına da imkan yaradır”. Ə.Əsədov qeyd edib ki, inflyasiya son illərdə bütün dünyada ciddi problemə çevrilib: ”O cümlədən, ticarət tərəfdaşımız olan ölkələrdə inflyasiya templərinin artması müşahidə edilib, orta illik inflyasiya 20,4 faiz olub. Bu proses ölkə daxilində qiymətlərin ümumi səviyyəsinin artmasına da təsir göstərib. 2022-ci ildə Azərbaycanda orta illik inflyasiya 13,9 faiz təşkil edib. Xüsusilə ərzaq qiymətləri idxal vasitəsilə daxili ərzaq inflyasiyasına ciddi təsir göstərib. İdxal olunan məhsulların illik qiymət indeksinin artımı 22 faizdən çox olub. Azərbaycandakı inflyasiya əsasən idxal edilmiş inflyasiyadır. Buna baxmayaraq, yüksək neft qiymətləri şəraitində tədiyə balansının profisitli olması, valyuta bazarında tarazlıq, qəbul edilmiş makro-fiskal çərçivə parametrləri və monetar şərait inflyasiya təzyiqlərini nisbətən məhdudlaşdırıb”.

### Azərbaycanda ilk dəfə olaraq su təsərüfatı balansı formalaşdırılıb

Baş nazir vurğulayıb ki, iqlim dəyişməsi, əsasən qonşu ölkələrdən daxil olan yerüstü su ehtiyatlarının azalması, digər tərəfdən, əhalinin sayının artması, ölkə iqtisadiyyatının, o cümlədən kənd təsərrüfatının inkişafı, əkin sahələrinin, suvarma və içməli su təchizatı üzrə şəbəkələrin genişləndirilməsi son nəticədə su təhlükəsizliyi məsələsini ən aktual mövzulardan birinə çevirib: ”Prezidentin tapşırığı ilə su ehtiyatlarından planlı, optimal və səmərəli şəkildə istifadənin təmin edilməsi və su təsərrüfatında yaranmış problemlərin həlli Hökumət qarşısında duran ən ciddi vəzifələrdən biridir. Dövlət başçısının Sərəncamı ilə 2020-ci ildə su ehtiyatlarından səmərəli istifadə üzrə Komissiya yaradılıb. Komissiya su ehtiyatlarından istifadəyə gündəlik rejimdə monitorinq və nəzarəti həyata keçirir. Eyni zamanda yanacaq-enerji balansı ilə yanaşı, Azərbaycanda ilk dəfə olaraq su təsərrüfatı balansı formalaşdırılıb. Bu balans çərçivəsində su ehtiyatlarının formalaşması və istifadəsi üzrə dəyərləndirmələr aparılır. Görülmüş işlər nəticəsində su ehtiyatlarından səmərəli istifadə, azalan su həcmlərinə qənaət artıb. Belə ki, əsas su anbarlarında suyun həcmi 1 yanvar 2023-cü il tarixinə 12,5 milyard kubmetr təşkil edib ki, bu da 2022-ci illə müqayisədə 600 milyon kubmetr, 2020-2021-ci illərlə müqayisədə 2 milyard kubmetrdən çoxdur. Eyni zamanda mövcud infrastrukturun yaxşılaşdırılması, su itkilərinin minimuma endirilməsi, su sahəsində fəaliyyət göstərən qurumlarda institusional, struktur islahatlarının aparılması, müvafiq qanunvericilik və normativ-hüquqi aktların təkmilləşdirilməsi istiqamətində lazımi tədbirlər görülür. Bütün bunlarla yanaşı, əsas çağırış sudan maksimum səmərəli və qənaətlə istifadə etməkdir. Bu, bütün su istehlakçılarına aiddir. Su sərvətdir və onu qorumaq hər birimizin borcudur”.

### "Artıq Azərbaycan regionda elektrik enerjisi ixrac edən aparıcı dövlətə çevrilib"

Əli Əsədov bildirib ki, Azərbaycan regionda elektrik enerjisi ixrac edən aparıcı dövlətə çevrilib: ”Azərbaycan Prezidentinin səyləri nəticəsində son dövrlərdə Azərbaycanın beynəlxalq enerji təhlükəsizliyinin təminində və nəqliyyat dəhlizlərinin inkişafında rolu daha da artıb. Azərbaycan regionda elektrik enerjisi ixrac edən aparıcı dövlətə çevrilib. Cənub Qaz Dəhlizi vasitəsilə hesabat ili ərzində ümumilikdə 21 mlrd., o cümlədən Avropaya 11,4 mlrd. kubmetr qaz ixrac edilib. Ötən il Azərbaycan ilə Avropa İttifaqı arasında energetika sahəsində strateji tərəfdaşlıq haqqında Memorandum imzalanıb. Sənədə əsasən, 2027-ci ilədək TANAP-la qaz nəqlinin indiki 16 milyard kubmetrdən 31 milyard kubmetrə, TAP-la isə 11 milyard kubmetrdən 20 milyard kubmetrə çatdırılması nəzərdə tutulur. Bütün bunlar Avropanın qaz bazarında Azərbaycanın rolunun artırılması məqsədinə xidmət edir. Eyni zamanda Azərbaycan böyük bərpaolunan enerji potensialına malikdir ki, bu potensial külək və günəş enerjisində cəmləşib. Prezident İlham Əliyevin uğurlu enerji siyasətinin nəticəsində bu istiqamətdə mühüm işlər görülür”.

### "Geosiyasi hadisələr fonunda Azərbaycanın nəqliyyat-tranzit infrastrukturuna tələbat artıb"

Baş nazir qeyd edib ki, geosiyasi hadisələr fonunda Azərbaycanın nəqliyyat-tranzit infrastrukturuna tələbat artıb: ”Dünyada, o cümlədən regionda cərəyan edən əsas geosiyasi hadisələr fonunda Azərbaycanın nəqliyyat-tranzit infrastrukturuna da tələbat artıb. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən ölkəmiz regionun mühüm nəqliyyat və logistika habı kimi tanınır. Ötən il Azərbaycan ərazisindən keçən tranzit yükdaşımalar 75 faizdən çox artıb. Eyni zamanda beynəlxalq yükdaşımalarda Orta dəhlizinin rolunun gündən-günə artdığını nəzərə alaraq, Azərbaycan bu dəhlizin də təşviq edilməsinə öz töhfəsini verir. Tranzit silsiləsində olan qurumlarda infrastrukturun yaxşılaşdırılması və müvafiq ötürücülük qabiliyyətinin artırılması istiqamətində tədbirlər davam edib. Belə ki, 2022-ci ildə Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ilə ümumi yükaşırmanın həcmi 15 faiz artaraq 6,4 mln. ton təşkil edib ki, onun da 89 faizi tranzit yüklərin payına düşüb”.

### "Azərbaycan Zəngəzur dəhlizi çərçivəsində ərazisində infrastrukturun yaradılması işlərini sürətlə davam etdirir"

Əli Əsədov bildirib ki, Azərbaycan Zəngəzur dəhlizi çərçivəsində ərazisində infrastrukturun yaradılması işlərini sürətlə davam etdirir: ”44 günlük Vətən müharibəsində qazanılan qələbədən sonra regionumuzda nəqliyyat-kommunikasiya layihələrinin inkişafı üçün yeni imkanlar açılıb”. Baş nazir deyib ki, bu kontekstdə yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin, xüsusilə Zəngəzur dəhlizinin açılması böyük əhəmiyyət kəsb edir. Azərbaycan Zəngəzur dəhlizi çərçivəsində öz ərazisində lazımi infrastrukturun yaradılması ilə bağlı işləri sürətlə davam etdirir. Horadiz-Ağbənd dəmir yolunun tikintisi üzrə işlər 38 faiz, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu üzrə isə 74 faiz yerinə yetirilib. Hər iki yolun tikintisi 2024-cü ildə başa çatacaq”.

### "Bu ilin sonuna qədər laçınlıların birinci qrupunun yerləşdirilməsi planlaşdırılır"

Baş nazir vurğulayıb ki, Prezidentin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə ”Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə ”Böyük Qayıdış”a dair I Dövlət Proqramı” təsdiq edilib: ”Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin icrasının təmin edilməsi məqsədilə Nazirlər Kabinetinin sərəncamı imzalanıb. Prezidentin birbaşa iştirakı və rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə xidmət edir. Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunmuş ərazilərdə müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması, iqtisadi fəaliyyətin, o cümlədən nəqliyyat-kommunikasiya xətlərinin bərpası istiqamətində mühüm işlər görülüb. Yadda qalan tarixi hadisələrdən biri işğaldan azad olunmuş Zəngilan rayonunun Ağalı kəndinə əhalinin köçürülməsinə başlanılmasıdır. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə mayın 27-də Zəngilan rayonunun Ağalı kəndində ”Ağıllı kənd” layihəsinin birinci mərhələsi üzrə açılış mərasimi həyata keçirilib. Birinci mərhələdə 66 ailənin (326 nəfər), indiyə qədər isə 86 ailənin (420 nəfər) Ağalıya köçürülməsi təmin olunub. Cari ilin sonuna qədər isə laçınlıların birinci qrupunun yerləşdirilməsi planlaşdırılır. Zabux və Sus kəndlərində 296 ailənin məskunlaşacağı nəzərdə tutulur. Bu günlərdə Talış kəndinə ilk 20 ailənin köçürülməsi həyata keçirilir”.

### "3 min şəhidin hər birinin ölüm kağızına mən qol çəkmişəm"

Əli Əsədov bəyan edib ki, 3 min şəhidin hər birinin ölüm kağızına qol çəkib: ”Prezident və Birinci vitse-prezident, dövlətimiz bu insanlara yüksək qayğı ilə yanaşır. Ev, maşın, varisləri ilə bağlı qayğılar, adlarının əbədiləşdirilməsi ilə əlaqədar addımlar atılır. Bir məqamı da deyim. Azərbaycanda 4500-ə yaxın məktəb var, 3600-ə qədərinə ad verilib. Bəzi hallarda şəhidlərimiz eyni məktəblərdə oxuyub. Hesab edirəm ki, ən azı məktəblərə şəhid adları verilə bilər. Küçələrə gəlincə, arxayınıqmı ki, o adları versək, şəhid ailələri onu qəbul edir? Bu məsələyə baxılır”.

### "Azərbaycanda 2040-cı ilə kimi sudan istifadə 2,1 dəfə artacaq"

Baş nazir deyib ki, Azərbaycanda 2040-cı ilə kimi sudan istifadə 2,1 dəfə artacaq: ”Təəssüflər olsun ki, Qafqazda suyu ən az olan dövlət Azərbaycandır. İki əsas su mənbəyi Azərbaycandan kənarda formalaşır və son istifadəçi Azərbaycandır. Bu gün əhalimizin sayı 10 milyondur, 2040-cı ilə qədər 12,5 milyona çatacağını proqnozlaşdırırıq. Bu il orta illik sudan istifadəmiz 21 milyard kubmetr olacaq. 2040-cı ilə kimi bu, 2,1 dəfə artacaq”.

Ə.Əsədov qeyd edib ki, son illər neft qiyməti konservativ olaraq 50 dollar götürülür: ”Bu il gözləntilər daha yüksəkdir. Neftin büdcə qiymətini 50 dollardan götürmüşük, amma may ayında bu qiymətdə artım ola bilər”.

**İsmayıl**

## Ordubadın icra başçısı vəzifəsindən azad olunub

Elşad Novruz oğlu Məmmədov Ordubad Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.

Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.

## Ankara Finlandiyanın NATO-ya üzvlüyünə "hə" deyib

### Türkiyə parlamentində ratifikasiya proseduru başlayacaq



**Türkiyə Finlandiyanın NATO-ya üzvlüyünə ”hə” deyib.**

Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada finlandiyalı həmkarı ilə birgə mətbuat konfransında bildirib.

Ərdoğan qeyd edib ki, Finlandiyanın NATO-ya üzvlüyü ilə bağlı Türkiyə parlamentində ratifikasiya proseduru başlayacaq.

Ərdoğan bildirib ki, Türkiyənin minlərlə vətəndaşı terror qurbanı olub.

O, İŞİD terror təşkilatını meydanda məğlub edən tək NATO üzvü olduqlarını diqqətə çatdırıb.

O, Türkiyənin terror təşkilatlarının kökünü qazımaqda qətiyyətli olduğunu vurğulayıb.

Ərdoğanın sözlərinə görə, Finlandiya Prezidenti ilə danışıqlar prosesində NATO-nun genişlənmə prosesini də dəyərləndiriblər. O bildirib ki, Türkiyənin NATO-nun ”açıq qapı” siyasətini dəstəkləyir, lakin ölkəsinin haqlı təhlükəsizlik narahatlıqları var.

Türkiyə Prezidenti qeyd edib ki, ötən il NATO-nun Madrid sammiti çərçivəsində Türkiyə, İsveç və Finlandiya arasında imzalanan üçtərəfli memorandumdan sonra Finlandiya öhdəlikləri üzrə səmimi və konkret addımlar atıb. Beləliklə, Finlandiyanın NATO-ya üzvlüyü ilə bağlı Türkiyə parlamentində ratifikasiya proseduru başlayacaq.

## Ceyhun Bayramov və Mövlud Çavuşoğlu bölgədəki vəziyyəti müzakirə ediblər




**Dünən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı olub.**

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyindən bildirilib.

Xarici işlər nazirləri Azərbaycanla Türkiyə arasında ikitərəfli və regional əməkdaşlıq məsələlərini, habelə beynəlxalq təşkilatlar çərçivəsində gündəlikdə duran aktual mövzuları müzakirə ediblər.

Tərəflər həmçinin bölgədəki mövcud vəziyyət, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıb.

# "Mənim kimləsə şəxsi-qərəzim yoxdur"

## Məleykə Abbaszadə: “Əgər kiminsə mənimlə şəxsi-qərəzi varsa, açıq deyə bilər”



**Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə ali təhsil müəssisələrinə sənəd qəbulunun başa çatması və buraxılış imtahanlarına həsr olunmuş mətbuat konfransı keçirib.**

*"Test sisteminin əzbərçiliyə səbəb olduğunu söyləyirlər. Ancaq müəyyən bacarıqları yoxlayan yazılı cavab tələb edən açıq tipli tapşırıqlardan istifadə olunanda çətindir deyirlər"*

O bildirib ki, ali və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə sənəd verənlərin sayında artım var: ”Bu il 107188 abituriyent ali və ya orta ixtisas təhsili müəssisəsinə qəbul olmaq üçün öz ərizəsini təsdiq edib. Ötən il bu rəqəm 99538 nəfər idi. 83717 abituriyent ərizəsində həm ali, həm də tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq istədiklərini qeyd edib. Bu il ərizə qəbulunda iştirak edən abituriyentlərdən 84159 nəfər cari ilin, 23029 nəfər isə əvvəlki illərin məzunlarıdır. 98119 nəfər Azərbaycan bölməsi, 9069 nəfər isə rus bölməsi üzrə sənəd verib”.

DİM son günlər ictimaiyyət arasında müzakirə olunan buraxılış imtahanlarının məzmunu və mürəkkəbliyi məsələsinə də aydınlıq gətirib.

O, buraxılış imtahanlarında istifadə olunan bütün test tapşırıqlarının ümumtəhsil müəssisələrində qüvvədə olan dərsliklər əsasında hazırlandığını və müvafiq fənlər üzrə təhsil proqramı - kurikulumun təlim nəticələrinə uyğun bilik və bacarıqları yoxlamağa xidmət etdiyini bildirib: ”İmtahanda istifadə olunan hər bir tapşırığın, hər bir sualın məqsədi var. Bütün bunlar bəlli standartlar üzrə bilik və bacarıqları yoxlamaq üçündür. Hər bir tapşırığın konkret olaraq hansı standartı yoxlamağa xidmət etdiyini də göstərə bilərik”.

M.Abbaszadə vurğulayıb ki, bəzən imtahanların çətinliyi ilə bağlı ictimaiyyət nümayəndələri ziddiyyətli fikirlər səsləndirir: ”Test sisteminin əzbərçiliyə səbəb olduğunu söyləyirlər. Ancaq müəyyən bacarıqları yoxlayan yazılı cavab tələb edən açıq tipli tapşırıqlardan istifadə olunanda ”çətindir” deyirlər”. DİM sədri riyaziyyat fənninə dair suallarla bağlı səsləndirilən fikirlərə də münasibət bildirib: ”Tapşırıqlar iştirakçıların yazılı cavablarının statistik təhlili əsasında bir daha araşdırılacaq və yekun qərarı ekspert komissiyası verəcək”.

”Bu il imtahanda istifadə olunan ”Telekinez”lə bağlı mətn daha çox müzakirələrə səbəb olub”- deyə DİM sədri əlavə edib. O bildirib ki, həmin mətnin həcmi əvvəlcədən verilən imtahan modelindəki mətnlə, həmçinin daha əvvəl imtahanlarda istifadə olunan mətnlərin həcmi ilə eynidir: ”Səsləndirilən fikirlərdə mətnin məzmununun da 11-ci sinif şagirdləri üçün çətin olduğu bildirilir. 4-cü sinif Azərbaycan dili metodik vəsaitinə baxın (səh.226, 2015-ci il, e-derslik.edu.az). Görün ”Telekinez” haqqında nə qədər məlumat var. Təəssüf ki, insanlar 4-cü sinifdə verilən mövzuların 11-ci sinif şagirdi üçün çətinlik yaratdığını iddia edirlər. Ancaq builki məzunlar 2015-2016-cı tədris ilində həmin dərsi keçiblər və tanış olmalı idilər”.

”Mənə qibtə eləyənlərə deyirəm ki, sağ əlim onların başına”- deyən M.Abbaszadə qeyd edib ki, rəhbərlik etdiyi quruma qarşı bəzi qərəzli fikirlərin onun şəxsi ilə əlaqəsi yoxdur: ”Mənim kimləsə şəxsi-qərəzim yoxdur. Əgər kiminsə mənimlə şəxsi-qərəzi varsa, açıq deyə bilər. Ancaq mənə qibtə eləyənlərə deyirəm ki, sağ əlim onların başına”.

DİM sədrinin sözlərinə görə, bu il Zəngilanın Ağalı kəndində 9-cu siniflər üçün buraxılış imtahanı keçiriləcək, lakin hələlik qəbul imtahanının keçirilməsi planlaşdırılmır.

**Şəymən**



# Deputatlar narazıdır

## Dünyada olduğu kimi, gərək bizdə də qiymətlər aşağı düşsün

**"Dərmanların qiymətinin optimallaşdırılmasına ehtiyac var. Səhiyyə sahəsində müəyyən problemlər müşahidə etməkdəyik. Vətəndaşların dərman təminatına əlçatanlığın yaxşılaşdırılması, dərmanların qiymətinin optimallaşdırılması və keyfiyyətini yüksəldilməsi istiqamətində qanuni tədbirlər görülməsinə ehtiyac var".**

Bunu Milli Məclisin dünənki iclasında Parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib. Komitə rəhbəri qeyd edib ki, ötən il İcbari Tibbi Sığorta Agentliyinin müqavilə imzaladığı özəl klinikaların sayı yüksəlib: "Bu, yaxşı göstəricidir. Lakin icbari tibbi sığortaya münasibətdə dövlət və özəl klinikalara fərqli yanaşmalar olmasını doğru hesab etmirik. Hazırda şəxs müayinə və müalicə üçün icbari tibbi sığorta hesabına özəl klinikaya yalnız həmin xidmətə müvafiq dövlət tibb müəssisələrində olmadığı halda və dövlət klinikasının göndərişi əsasında müraciət edə bilər ki, bu da vətəndaşın tibb müəssisəsini və həkimi seçmə hüququnun pozulması olmaqla yanaşı, özəl klinikaları dövlət klinikalarından asılı vəziyyətdə saxlayır. Bu qüsurlu yanaşma aradan qaldırılmalı, klinikalar arasında sağlam rəqabət şəraiti yaradılmalı, göndəriş qaydası təkmilləşdirilərək klinika və həkim seçmək hüququ təmin edilməlidir".

### "Doğulan hər 1000 uşağın 7-8-i ürək qüsurlu olur, peşəkar mütəxəssislər yetişdirilsin"

Deputat Soltan Məmmədov deyib ki, bu gün Azərbaycan səhiyyə sahəsində dövlət proqramlarının uğurla icrasına görə nümunəvi ölkələr sırasında göstərilir. Lakin bu proqramların icrasına nəzarətlə bağlı daha konkret mexanizmlərin tətbiqinə ehtiyac var: "Hesablama Palatasının 2021-ci ilə dair hesabatında bu barədə qeydlər var idi. İndiki halda Azərbaycanda icbari tibbi sığorta sisteminin uğurlu tətbiqi ayrı-ayrı xəstəliklərlə mübarizə sahəsində qəbul olunmuş dövlət proqramlarının icbari tibbi sığorta sisteminə inteqrasiyanın mümkün olduğunu deməyə əsas verir. Bu, belə proqramlardan faydalanmaq istəyən bütün vətəndaşlara bərabər imkanlar yaratmaq üçün vacibdir. Uşaqlarda anadangəlmə ürək qüsurlarının aradan qaldırılması məqsədilə 5,2 milyon manat vəsait ayrılıb. Bunun cəmi 826 min manatı xərclənib, 331 kardiocərrahiyyə əməliyyatı keçirilib. Çox yaxşı olardı ki, ayrılan vəsait bu sahədə xidmətlərin təkmilləşdirilməsinə, peşəkar mütəxəssislərin yetişdirilməsinə sərf olunsun. Ölkədə yeni doğulan hər 1000 uşağın 7-8-i ürək qüsurlu olur. Yəni bu, çox ciddi bir problemdir və dövlətin ayırdığı resursları yönəltməklə bu problemin həllində daha yüksək nəticələr əldə etmək mümkündür". Deputat qeyd edib ki, Azərbaycanda icbari tibbi sığorta zərfinə daxil olan xidmətlərin sayı ildən-ilə artır: "Bu proses özəl tibb müəssisələrinə göndərişlərin sayında da artımla müşayiət olunur. Hesabatdan da göründüyü kimi, özəl səhiyyə müəssisələrinə göndərişlərin həcmində 5,7 dəfə artım qeydə alınıb. Bu baxımdan, həm dövlət, həm də özəl səhiyyə qurumlarında göstərilən tibbi xidmətlərin keyfiyyətinə nəzarətin gücləndirilməsi də diqqətdə olmalıdır. Diaqnostika, müayinə, profilaktika, müalicə protokollarına riayət edilməsi ilə bağlı məsələlərə məhz Səhiyyə Nazirliyi tərəfindən nəzarət tədbirləri ilə bağlı məlumatların da hesabatda əksini tapması ümumi mənzərə haqqında daha aydın təsəvvür yarada bilər".

***"Monopoliyaya görə Azərbaycan vətəndaşları 500 milyon manatdan çox vəsait itirirlər"***

### "Əmək bazarında ayrı-seçkiliyə məruz qalanlar sırasında irsi qan xəstəliklərindən əziyyət çəkənlər var"

Soltan Məmmədov deyib ki, hesabatda peşə və ixtisaslar üzrə hazırlıq kurslarına 173 əlilliyi olan şəxslərin cəlb edildiyi əksini tapıb ki, bu da qeyd olunan kateqoriyadan olan şəxslərin məşğulluğunun təmin olunması istiqamətində çox mühüm göstəricilərdən biridir". Deputat bildirib ki, peşə hazırlığı kurslarını bitirmiş şəxslərin nə qədər hissəsinin əmək bazarında iş tapmağa müvəffəq olması barədə faktların açıqlanması da ümumilikdə bu təşəbbüsün nəticələrinin düzgün qiymətləndirilməsi baxımından yaxşı olacaq: "Əlilliyi olan şəxslərin məşğulluq probleminin həlli ilə bağlı qanunvericiliklə nəzərdə tutulmuş qaydada kvota üzrə iş yerlərinin ayrılması nəzərdə tutulur. Qanunun bu tələbinə lazımi səviyyədə riayət etməyən, əlilliyi müəyyən edilmiş şəxsləri işə götürmək istəməyən qurumlara qarşı qanunvericilikdə nəzərdə tutulmuş inzibati məsuliyyətə cəlb edilməsi məsələsinə diqqət daha da artırılmalıdır. Eyni zamanda bu istiqamətdə stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi də məqsədəuyğun olardı. Bununla bağlı bir məqamı da diqqətə çatdırmaq istərdim ki, əmək bazarında ayrı-seçkiliyə məruz qalanlar sırasında irsi qan xəstəliklərindən əziyyət çəkən vətəndaşlar da var. Baxmayaraq ki, onların səhhətindəki problemlər fiziki aktivlikləri və iş qabiliyyəti baxımından heç bir maneə yaratmır, nə də ünsiyyətdə olduğu şəxslər üçün təhlükə mənbəyidirlər. Çünki bu xəstəliklərin yoluxuculuq xüsusiyyəti yoxdur".

### "Bəzi insanlar azad olunan ərazilərdə məktəb, bağça tikmək istəyirlər"

Deputat Ceyhun Məmmədov bildirib ki, məcburi köçkünlərin qazla bağlı problemi var: "Cəbrayılın əhalisi 54 rayonda məskunlaşıb. Məsələn, "Saatlının Nəriman kəndi var. Bügunə kimi bu kənddə qaz məsələsi həllini tapmayıb". C.Məmmədov deyib ki, bu gün onlar öz ağaclarını kəsərək qışı keçirməyə çalışırlar: "Bu gün belə bir yanaşma var ki, bəzi kəndlər birləşdirilməlidir. Bu kimi addımlar atılarkən yerli əhalinin rəyi, fikirləri nəzərləri alınmalıdır. Məsələn, Cəbrayılın Fuqanlı və Horovlu kəndlərinin birləşməsi nəzərdə tutulur. Bundan əvvəlki dövrdə Şükürbəyli kəndi ilə eyni xətdə, eyni kolxozda olublar. Bu addımlar atılarkən bir sıra hallarda əhalinin rəyinə baxmaq olar. Bundan başqa, bəzi insanlarımız işğaldan azad olunan ərazilərdə məktəb, bağça tikmək istəyirlər. Nəzərə alsaq ki, Qarabağda bərpa işləri böyük vəsait tələb edir, ona görə də belə bir addımlara baxıla bilər".

### "Əgər bu, idxal olunan inflyasiyadırsa, qiymət bizdə niyə düşməyə başlamır?"

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli bildirib ki, Azərbaycanda olan inflyasiyanın idxal olunan inflyasiya olduğu bildirilir: "Beynəlxalq aləmdə qiymətlər aşağı düşməyə başlayıb. Əgər bu, idxal olunan inflyasiyadırsa, qiymət bizdə niyə düşməyə başlamır? Burada monopoliya böyük rol oynayır. Buna görə də antimonopoliya addımları atılmalıdır. Monopoliyaya görə Azərbaycan vətəndaşları 500 milyon manatdan çox vəsait itirirlər".

### "Bəzi küçə adlarının nəyi ifadə etdiyi bilinmir"

Parlamentin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva bildirib ki, təəssüf ki, bir sıra şəhidlərimizin adları hələ də əbədiləşdirilməyib: "Bəzi küçə adları var ki, nəyi ifadə edir, bilinmir. Məsələn, bir şəhidimizin ailəsi müraciət edirdi, şəhidimizin Binəqədidə yaşadığı küçənin adı "İzvidnoy" adlanır. Bu "İzvidnoy" nə deməkdir, heç kim başa düşmür. Binəqədi rayonunda "İkinci Dəmir yolu", "Üçüncü Dəmir yolu", Yasamalda "Yeddinci sallaqxana" və s. adlarla küçələr var. Bunlar nə məna ifadə edir, bilinmir. Biz istəyirik ki, bütün şəhidlərimizin adı əbədiləşsin".

### "Yeni vəzifəyə gələn uzun müddət çalışan işçini işdən çıxarır"

Parlamentin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov bildirib ki, bələdiyyələrin torpaqlarının xəritələri hələ də verilməyib. Bələdiyyə mülkiyyətinə çox yerdə sahib çıxıblar: "Qanunla bələdiyyələrə verilən mülkiyyət onlara geri verilsin. Qəbiristanlıqlar da qanunla bələdiyyələrə verilib, lakin ortada iş yoxdur". Deputat qeyd edib ki, bir də görürsən hər hansı nazirlikdə rəhbər şəxslə bağlı dəyişiklik olur, yeni gələn vəzifəsinin icrasına başlayan kimi uzun müddət çalışan işçini işdən çıxarır. Çıxarılan şəxs nə korrupsiyaya yol verib, nə dövlətə xəyanət edib. Nə var ki, o biri nazir və ya icra başçısı ilə işləyib. Həmin şəxs də gözləyir ki, bir pillə irəli çəkəcəklər, amma əksinə, işdən çıxarırlar".

**İsmayıl Qocayev**

# Çanaqqala zəfəri Bakı-İstanbul liseyində anıldı





**Dünən Bakı İstanbul liseyində Çanaqqala zəfərinin 108-ci ildönümünə həsr olunan "Bir dastandır Çanaqqala" tədbiri keçirilib.**



Tədbirdən öncə, Azərbaycan və Türkiyənin dövlət himnləri oxunub, şəhidlərin ruhu bir dəqiqəlik sükutla anılıb. Bir ay müddətində Çanaqqala zəfərinə həsr olunan özəl liseylər arasında keçirilən futbol və şahmat turnirinin qalibləri də müəyyənləşdirilib və mükafatlandırılıb. Şahmat turnirində 1-ci yerə Dəyanət liseyi, 2-ci yerə Evrika liseyi, 3-cü yerə Bakı-İstanbul liseyi çıxıb. Futbol turnirində isə ilk pilləyə yenə Dəyanət liseyinin komandası qalxıb. İkinci yerə Evrika liseyi, üçüncü yeri isə Bakı-İstanbul liseyi çıxıb. Tədbirdə keçirilən şahmat və futbol turnirləri barədə liseyin direktoru Tural Abbasquliyev ətraflı məlumat verib. Qalib komandalar, şagirdlər medal və sertifikatlarla mükafatlandırılıb. Mükafatları qaliblərə Azərbaycan Türk Ocağının sədri, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı təqdim edib. Tədbirin bədii hissəsində liseyin şagirdləri Çanaqqala savaşından kiçik bir səhnəcik təqdim edib, zəfərlə bağlı şeirlər və mahnılar ifa ediblər.

**Aygün**

# PAŞA Həyat və MEDİA tərəfindən media nümayəndələri üçün təlim təşkil olunub

**"PAŞA Həyat Sığorta" ASC və Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin birgə təşkilatçılığı ilə media nümayəndələri üçün təlim təşkil olunub.**



"Şərq" xəbər verir ki, "Həyat sığortası nədir?" mövzusunda keçirilən təlimin əsas məqsədi jurnalistlərin sahə üzrə biliklərinin artırılması, həmçinin media ilə səmərəli əməkdaşlığın gücləndirilməsi və görülən işlərin media vasitəsilə ictimaiyyətə çatdırılmasıdır.

Açılış mərasimində çıxış edən PAŞA Həyat şirkətinin Korporativ Kommunikasiya şöbəsinin müdiri Vəli Məmmədov PAŞA Həyat haqqında məlumat verib. Medianın İnkişafı Agentliyinin nümayəndəsi Pərvanə İbrahimova qurumun peşəkar və sahəvi jurnalistikanın inkişafı istiqamətində gördüyü işlərdən danışıb, həyat sığortası barədə ictimaiyyətin dolğun və düzgün məlumatlandırılmasının əhəmiyyətini vurğulayıb. Sonra PAŞA Həyat şirkətinin Marketinq Mərkəzinin rəhbəri Ruslan Ələkbərov həyat sığortası məhsulları, Anderraytinq və Qiymətləndirmə departamentinin direktoru Bəhruz Hacıyev bu sahələr və Risklərin idarəedilməsi departamentinin direktoru Şahin Mahmudzadə sığorta riskləri haqda təqdimatla çıxış ediblər.

*Təqdimatlardan sonra media nümayəndələri üçün "PAŞA Həyat" şirkətinin baş ofisinə infotur təşkil olunub.*

**Aygün**

# Antiinflyasiya tədbirləri genişləndirilməlidir

## Hiss olunur ki, qiymətlərin artması hələ müşahidə ediləcək

**"Bazarda inhisarçılıq mövcuddur. Bir ildən artıq vaxt keçməsinə baxmayaraq, Rəqabət Məcəlləsi Milli Məclisə daxil olmayıb. Baş nazirdən xahiş edirik ki, bu məsələyə diqqət etsin".**

*Bunu Milli Məclisin iclasında Nazirlər Kabinetinin 2022-ci ildəki fəaliyyətinə dair hesabatın müzakirəsi zamanı millət vəkili Vahid Əhmədov bildirib.* Deputat deyib ki, həm ərzaq, həm də gündəlik tələbat malları, həm də dərmanların qiymət artımı kifayət qədər yüksəkdir: "Hiss olunur ki, qiymətlərin artması hələ müşahidə ediləcək. Qiymət artımını nə qədər idxal inflyasiyası ilə əlaqələndirsək də, burada əsas süni qiymət artımının qarşısının alınmasından söhbət gedir. Hesab edirəm ki, bu sahədə antiinflyasiya tədbirləri daha da genişləndirilməlidir, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin fəaliyyəti gücləndirilməlidir. Son günlər unun, çörəyin qiymətində müəyyən enmələr hiss olunmaqdadır".

**V.Əhmədov bağlanmış banklardakı əmanətlərlə bağlı problemi də qaldırıb:** "Banklarla bağlı 3 problemi diqqətinizə çatdırmaq istəyirəm. Azərbaycanda bank faizləri kifayət qədər yüksəkdir. Kredit faizlərinin yüksək olması sahibkarlar üçün problem yaradır. İkinci məsələ, bağlanmış banklarda əhalinin kifayət qədər əmanətləri var və əmanətlərin qaytarılmasında ciddi problemlər var. Üçüncü, vaxtı keçmiş kreditlərin qaytarılmasıdır. Mərkəzi Banka bu problemin həll edilməsini tövsiyə edirəm".

**İsmayıl**

# Xüsusi karantin rejimi uzun müddət davam etməyəcək

## Növbəti mərhələdə quru sərhədlərin açılması ilə bağlı müsbət qərar veriləcək



**Baş nazirin müavini Şahin Mustafayev quru sərhədlərinin açılması məsələsinə münasibət bildirib. Şahin Mustafayev deyib ki, Operativ Qərargah tərəfindən mövcud epidemioloji vəziyyətə uyğun olaraq qərarlar qəbul olunur.**

Baş nazirin müavini bu məsələ ilə bağlı dəqiq vaxt deyə bilməyəcəyini qeyd edib.

Şahin Mustafayevin sözlərinə görə, vəziyyətə uyğun müvafiq qərar qəbul olunacaq. Qeyd edək ki, Ümumdünya Səhiyyə Təşkilatı Pandemiyanın bitdiyini elan etsə də, Azərbaycanda koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycanın ərazisində xüsusi karantin rejiminin müddəti 2023-cü il mayın 1-i saat 06:00-dək uzadılıb.

Əksər ölkələrdə isə mərhələli şəkildə koronavirusla bağlı qadağalar aradan qaldırılıb. Azərbaycanda da COVID-19-la bağlı qadağaların əksəriyyəti ləğv olunsa da, quru sərhədlərin açılması ilə bağlı qərar yoxdur.

Biz mərhələli şəkildə və epidemioloji vəziyyətə uyğun olaraq quru sərhədlərin açılmasını təklif edirik.

Ekspertlər isə hesab edir ki, qarşıda turizm mövsümü gəlir və Azərbaycana gələn turistlərin təxminən 70 faizi sərhədimiz olan ölkələrin payına düşür. Bu səbəbdən quru sərhədlərin açılması turizmin inkişafı baxımından vacibdir. Eyni zamanda vətəndaşlarımızın qonşu ölkələrə daha asan və az xərclə getməsi də önəmlidir.

**Professor Adil Qeybulla isə "Şərq"ə açıqlamasında deyib ki, pandemiya hələ bitməyib, sadəcə karantin qaydaları çox yumşaldığından biz koronavirusu bir o qədər də hiss etmirik:** "Amma bu il bitməsi proqnozlaşdırılır, yoluxma sayından da göründüyü kimi, COVİD-19 yavaş-yavaş öz qürubuna yaxınlaşır. Çox güman ki, il ərzində bitməsi ilə bağlı rəsmi bəyanat veriləcək. Hələlik isə pandemiya davam edir. Nə ÜST, nə də dünyanın digər mötəbər mərkəzləri COVİD-19 pandemiyasının bitdiyinə dair raport verib. Hətta infeksiya zənciri ayrı-ayrı ölkələr tam qırılmayıb. Ayrı-ayrı ölkələrdə epidemioloji vəziyyətə uyğun qərarlar qəbul edilir. Bir çox ölkələrdə koronavirusun əvvəlki 4 növünün, Sars 2-nin performansları davam edir. Koronavirusun sonuncu ştamı hesab olunan Omikronun belə mutasiyası davam edir. Pandemiyanın bitməsinə dair dünyanın nüfuzlu Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzlərinin yekun rəyi və ÜST-nin rəsmi bəyanatı olmalıdır.

Hər nə qədər koronavirusa yoluxma hallarında kəskin azalmalar müşahidə edilib, ölüm sayı minimuma ensə də, hüquqi baxımdan karantin rejiminin ləğv edilməsi üçün rəsmi raportun olması çox vacibdir. ÜST rəsmilərinin dilindən şifahi formada verilən elanlar hüquqi əhəmiyyət daşımır. Necə ki, çiçək virusu tamamilə yoxa çıxandan sonra artıq onun vaksinasiyası dayandırıldı və 1980-ci ildə dünya səhiyyə təşkilatı tərəfindən çiçək virusunun rəsmi bəyanatı verildi. Həmçinin də 2019-ci ildən yayılmağa başlayan və davamlı olaraq mutasiyaya uğrayaraq insanları yoluxduran COVİD-19-a yoluxma sayı sıfıra çatanda pandemiya bitmiş hesab olunacaq".

**Quru sərhədlərinin açılmasına gəldikdə isə professor deyib ki, bu məsələ daxili epidemioloji mühitə uyğun tənzimlənməlidir. Hesab edirəm ki, Azərbaycanda xüsusi karantin rejimi uzun müddət davam etməyəcək və növbəti mərhələdə quru sərhədlərin açılması ilə bağlı müsbət qərar veriləcək:** "Əslində quru sərhədlərin açılması ilə bağlı qərarı Nazirlər Kabineti yanında Operativ Qərargah verir. Bu məsələdə təkcə bizim ölkə deyil, sərhəd qonşularımızdakı epidemioloji vəziyyət də nəzərə alınır. Operativ Qərargahın mövcud vəziyyəti nəzərə alaraq mərhələli şəkildə quru sərhədlərlə bağlı qərar qəbul etməsini məqbul sayıram".




**Şəymən**

# "Qoy danışsınlar, vecimə də deyil, 2-3 gündür reytinqim lap qalxıb"

## Novella Cəfəroğlu: “Mənim üstünlüyüm həmişə bu olub ki, sözümü nə zaman lazım oldu, demişəm”

**”Söz vermişdilər, Bəxtiyarı buraxacaqdılar. Amma... Onun qadınlarla olan rüsvayçı videoları, yazışmaları, fotoları ortaya çıxdı. Bunu hakimiyyət eləmədi, öz dostları, yaxın ətrafı elədi. Bundan sonra mən onu necə müdafiə edə bilərəm?! Ən pis qadına da o sözlər yazılmaz, qadınlarla bu cür alçaqcasına davranılmaz, necə ki Bəxtiyar davranıb. Mən qadın müdafiəçisəyəm, bu, mənim kredomdur. Qadın müqəddəsdir. Kimsə qadını aşağılamamalıdır. Ona görə də bu məsələdə Bəxtiyarın müdafiəsindən əl çəkdim”.**



***"Şükür Allaha, kimsənin yanında gözükölgəli deyiləm. İqtidardan nə ev almışam, nə maşın. Köhnə ofisimiz var, tökülüb-gedir"***

Bu sözləri ”Şərq”ə açıqlamasında Dilarə Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri Novella Cəfəroğlu dedi. Xatirladaq ki, N.Cəfəroğlunun barəsində həbs-qətimkan tədbiri seçilmiş ictimai fəal Bəxtiyar Hacıyevi müdafiə etməyəcəyi haqda bəyanatı qızğın mübahisələrə və müzakirələrə səbəb olub. N.Cəfəroğlunun KİV-ə verdiyi açıqlamada qadınlara qarşı qeyri-etik hərəkətlərinə görə B.Hacıyevi daha müdafiə etməyəcəyi, eləcə də Prezident İlham Əliyev barədə müsbət fikirlər səsləndirməsi bəzilərinin xoşuna gəlməyib və ona qarşı ittihamlar səsləndirməyə başlayıblar. Lakin Novella Cəfəroğlunun ünvanına xoş sözlər yazanlar, onu dəstəkləyənlər xeyli çoxdur. **Sosial şəbəkələrdə hazırda Novella Cəfəroğlu ”küləyi” əsir. Demək olar ki, bütün ictimaiyyət N.Cəfəroğluna dəstək nümayiş etdirir. ”Şərq”ə açıqlamasında N.Cəfəroğlu bundan məmnunluğunu gizlətmədi:**

- Deməli, ömrümü hədər yaşamamışam. Fəaliyyətim hədərə getməyib. Bu gün buna bir daha əmin oldum. Elə adamlardan dəstək mesajları, xoş sözlər, əməyimə qiymət görürəm ki, o adamlarla bəlkə həyatımda heç üz-üzə gəlməmişəm. Amma demək, fəaliyyətimi izləyiblər, gördüyümüz işlərdən xəbərdardırlar. Bilirsiniz ki, ailəm İsraildə yaşayır. Oğlum bir dəfə giley etdi, dedi ki, sən bizi Vətənə dəyişdin. Mən də dedim ki, buna dəyər! Mən millətimin yanında oldum, bu gün də millətimin, xalqımın mənim yanımda olduğunu, məni sevgiylə əhatələdiyini görürəm. Bundan böyük xoşbəxtlik nə ola bilər? Tənqid edənlər də, qoy etsinlər. 2-3 gündür reytinqim lap qalxıb. 1-ə 10 olub. Nə deyirlər, desinlər. Vecimə də deyil. Mənim üstünlüyüm həmişə bu olub ki, sözümü nə zaman lazım oldu, demişəm. Heç kimdən çəkinməmişəm. Həqiqəti dediyim üçün mənimlə hesablaşıblar, razılaşıblar. Bəxtiyar Hacıyevlə bağlı da ilk gündən deyirdim ki, onu buraxın getsin. Buraxacaqdılar da. Amma bu videolar, yazışmaların üzə çıxması onun əslində necə bir insan olduğunu və necə çirkin işlərlə məşğul olduğunu üzə çıxardı. Bundan sonra mən onu müdafiə edə bilmərəm.

*N.Cəfəroğlu Prezident İlham Əliyevlə bağlı bildirdiyi fikri bir daha təsdiqlədi:*

- Bəli, demişəm ki, Prezidentin Almaniyada Azərbaycan dilində danışmasına ”bayıldım”. Çox xoşuma gəldi, onu alqışlayıram. İlham Əliyevin xarici siyasətini bəyənirəm, dəstəkləyirəm. Prezident Azərbaycanı xarici təsirlərdən, xarici hücumlardan qoruyur. Bizim Türkiyədən savayı dostumuz yoxdur, 4 bir yanımız bizi sevməyən qüvvələrdir. Belə vəziyyətdə dövlətimizin yanında olmalıyıq. Dialoq da mütləq lazımdır. Bir addım müxalifət atırsa, bir addım da iqtidar atmalıdır. Bunun nəyi pisdir? Şükür Allaha, kimsənin yanında gözükölgəli deyiləm. İqtidardan nə ev almışam, nə maşın. Köhnə ofisimiz var, tökülüb-gedir. Bu şəraitdə çalışırıq, işləməyə davam edirik.

**Məlahət Rzayeva**



**”Ermənistan 30 ilə yaxın müddət ərzində işğal altında olan rayonlarımızı darmadağın, yerlə-yeksan edib”.**

**Bunu ”Şərq”ə sabiq deputat Flora Qasımova Ağdamda iki nəfərin minaya düşüb, həlak olmasından danışarkən deyib.**

Keçmiş millət vəkilinin sözlərinə görə, işğaldan azad etdiyimiz torpaqlarda

# Keçmiş deputat qəzəb hissini boğa bilmir

## “Həqiqətən də, Ermənistanın nazı ilə çox oynayırıq”

çox sayda mina basdırıblar: ”Bundan sonra da analoji hadisələr olacaq. Qəzəb hissimi boğa bilmirəm. Ermənistana bir söz deyən yoxdur. Beynəlxalq təşkilatlar susmağa davam edir. ”Axırıncı aşırım” filmində deyildiyi kimi, ”Abbasqulu bəyin nazı ilə çox oynayırıq ha, Kərbəlayi!”. Həqiqətən də, Ermənistanın nazı ilə çox oynayırıq.

***"Biz barışıq tərəfdarıyıq, amma ermənilər mina basdırmağa davam edirlər, Qarabağa silah daşıyırlar"***

Özü də adıçəkilən millətdə utanmaq da yoxdur. Deyirlər ki, azərbaycanlılar ermənilərə qarşı nifrət hissi yaradırlar. Lakin bunu bizim yox, özlərinin etdiyini anlamırlar. Gənclərimiz, övladlarımız şəhid oldu, şəhərlərimiz, kəndlərimiz dağıdıldı. Eyni zamanda hərbçilərimiz və dinc sakinlərimizdən kimi minaya düşərək həyatını itirdi, kimi də şikəst qaldı.

Etdikləri barbarlıqlar qarşısında təbii ki, bizdə düşmənlərimizə qarşı nifrət hissi oyanacaq. Qarabağda yaşayan ermənilərə sual vermək lazımdır ki, yenə övladlarının meyitlərini qarşılamağa hazırdırlarmı?! Səngərləri nə məqsədlə qazırlar?! Biz barışıqdan yanayıq, amma onlar mina basdırmağa davam edirlər, Qarabağa silah daşıyırlar.

Azərbaycanı ermənilərin tarixi, mədəni abidələrini dağıtmaqda günahlandırır və qınayırlar. Lakin gəlib, yoxlamalar həyata keçirə bilərik. Əslində biz yox, düşmən ölkə azərbaycanlılara məxsus mədəni, dini abidələri məhv edib, adlarımızı erməniləşdirib. UNESCO-dan tələb edirik ki, ermənilərin törətdiyi cinayətləri araşdırsınlar. Cənab Prezident İlham Əliyevin də dediyi kimi, elə bil bu ərazilərdən vəhşi qəbilə keçib. İndi isə barışığa üzləri yoxdur”.

*Qeyd edək ki, Ağdamda iki nəfər minaya düşərək həlak olub.*

*DİN-in verdiyi məlumata görə, ərazidə heyvan otaran kənd sakinləri mina partlayışı nəticəsində həyatlarını itiriblər. Bununla bağlı ABŞ-nin ölkəmizdəki səfirliyindən bildirilib ki, Qarabağda minalarla çirklənmə iqtisadi inkişafın qarşısını alır və köçkünlərin təhlükəsiz qayıdışına mane olur.*

**Sücayət Mehti**

# Nizami türk şairidir

## Gəncəvini fars şairi adlandırmaq, qatığa qara deməyə bərabərdir



***Dahi Azərbaycan şairinin şəxsiyyəti, milliyyəti insafını gözardı etməyən heç bir tədqiqatçıda şübhə doğurmur***

Dahi Azərbaycan şairi Nizami Gəncəvinin milli kimliyinin saxtalaşdırılması cəhdləri yenidən aktuallaşıb. N.Gəncəvinin əsərlərinin mövzu seçimi və fars dilində yazmasının səbəbləri barədə mütəxəssislər dəfələrlə izahat versə də, İran, şairi ”farslaşdırmaqdan” əl çəkmir.

Dərin və əhatəli araşdırmalar isə bir daha təsdiqləyir ki, Nizami poeziyasının cismi - dili, mətni farsca olsa da, ruhu - məramı, ideyası türkcədir. Nizami türk əsrinin, türk minilliyinin şairidir. Nizaminin ”fars şairi” olduğunu qəsdən və qərəzlə ortaya atıblar. Ara qarışdıranlar Bakıda Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin X Qlobal Bakı Forumunun keçirildiyi bir vaxtda İranda ”Nizami həftəsi” keçirməklə, guya, dahi şairə ”məhəbbətlərini” göstərir, əslində isə ölkəmizə düşmənçiliklərini sərgiləyirlər.

**Şair Aqşin Yeniseyin izahına görə, Oğuzdan əmələgələnlər Anadoluda Bizans, İran coğrafiyasında Sasani mədəniyyətinə yiyə durdular. Bizansda mədəniyyət soyuqqanlı idi, daha çox memarlıqda ifadə olunurdu. Sasanilər isə sözə, dastana, yəni basıb-bağlamağa önəm verirdilər:** ”Ona görə Anadoluda Memar Sinanlar yetişdi, biz tərəfdə Nizamilər, Füzulilər.

Nizamini fars şairi adlandıran farsın gərək milli qüruru olmasın. Birincisi, Nizaminin dövründə sənət xalqa yox, saraya məxsus idi. Sarayda kim otururdusa, şair də onun idi.

İndiki dövrə fikriniz getməsin, kommunizm tərbiyəsi görmüş və ən azı, yazıb-oxumağı bilən xalqımız şairini öz yanında görmək istəyir, görməyəndə üzünə tüpürür. Nizaminin zamanında xalq yazıb-oxuya bilmirdi, ona görə də Nizaminin öz dövrünün xalqı üçün iki girvənkə mərci qədər dəyəri yox idi. O dövrdə şair ”saray şairi” olmağa məhkum idi, çünki oxucu da saray oxucusu idi.





Nizami Gəncəvinin də, demək olar ki, ən böyük əsərləri türk hökmdarların sifarişi ilə yazılıb.

İkincisi, Nizaminin farslara münasibətidir. ”İsgəndərnamə”ni oxuyanlar bilir. Bu əsər Makedoniyalı İsgəndərin Əhməni şahı Daranı məğlub etdiyi tarixi dövrü əhatə edir. Və əsərdə Nizami Gəncəvi Daranı yıxıb-sürüyür. Daranı bütün dövrlərin ən pis insani sifətlərinə sahib bir adam kimi təsvir edir. Nizami Gəncəvi fars sarayının şairi olsaydı, belə yaza bilərdimi?

Farsların özlərinin də ”İsgəndərnamə” adlı bir kitabı var. Abbasqulu Ağa Bakıxanov bu kitaba istinadən yazır ki, İsgəndər bu coğrafiyaya gələndə indiki Bakı şəhərində yurd salır, qədim bakılılar onu bütün günü lülə, tikə, qaban əti və tut arağına qonaq edirlər. Gənc İsgəndər də yeyib-içən oğlan olduğuna görə uzun müddət Bakıda qalası olur. Yerli əhali ilk dəfə dünyaya elm yaymaq üçün səfərə çıxan bir şahla qarşılaşır İsgəndərin simasında.

Nizami Gəncəvi də ”İsgəndərnamə”də məhz yerli xalqın yaddaşına istinad edir. Əhməni şahı Daranı elmə dəyər verməyən zırrama bir hökmdar kimi tənqid və təqdim edir. Fars sarayında belə farsdilli şair yetişə bilərdimi?”.

**Yazar Fərid Hüseyn isə ”Şərq”ə açıqlamasında deyib ki, Nizami Gəncəvinin şəxsiyyəti, milliyyəti insafını gözardı etməyən heç bir tədqiqatçıda şübhə doğurmur:** ”Sadəcə orta çağda fars dilinin hegemonluğu, ədəbi elitar mühitə inteqrasiyası bir sıra şairləri o dildə yazmağa vadar edib. Artıq əsrlərdir ki, o dil ədəbi elitarlıq mövqeyini itirib, o dil bəşəri ədəbi dil olmaqdan çıxıb. Zaman-zaman da o elitarlığa xiffət qonşularımızı məcbur edib ki, ”Nizami mənimdir” desinlər. Nəticədə bu məsələ həllolunmaz şəkil alıb. Üç il öncə Paşinyan da ”Qarabağ Ermənistandır” deyirdi. Deməklə deyil ki, görün axırı necə oldu?!

Ötən il ”Nizami Gəncəvinin əsərlərinin el variantları” adlı kitabı çapa hazırladım. O nəşrdən aydınca görünür ki, Nizami türk təfəkkürü ilə yazıb, o kitabda həm Nizami yaradıcılığındakı türk folkloru, həm də ədibin vəfatından sonra onun yaratdığı əsərlərin türk folkloruna təsiri nağıl və dastanların köməyi ilə üzə çıxır. O kitabdan sonra Nizamini fars şairi adlandırmaq, qatığa qara deməyə bərabərdir. O səpkidə başqa dəyərli kitablar da var.

Nizami indiki İran ərazisinə köçüb farsca yazsaydı, onda ona fars şairi demək olardı, amma o daim vətənində yaşayıb, əsər yazmaq üçün sifariş aldığı hökmdarlar türk hökmdarlarıdır. Bu gün dünyada yaranan ədəbiyyatın çoxu ingilis dilində yaranır, gələcəkdə o qədər yazıçıya ingilis yazıçısı demək olarmı? Absurddur. Haçansa Nizaminin ərəbcə də divanı tapıla bilər, onda deyək ki, Nizami ərəb şairidir? Qərəz, Nizami türk və Azərbaycan şairidir”.

**Şəymə**

# Mina terroru ən təhlükəli məsələ olaraq qalmaqdadır

## Bu, uzun illər Azərbaycan xalqı üçün problemə çevriləcək

**44 günlük Vətən müharibəsindən iki ildən çox vaxt ötsə də, Ermənistan yenə də ölkəmizə qarşı mina terrorunu davam etdirir. Ötən gün Ağdam rayonunun Yusifcanlı kəndi ərazisində iki mülki şəxsin minaya düşərək həlak olması Ermənistanın mina terrorunun miqyasını və doğurduğu təhlükəni bir daha göstərdi.**



Müharibədən sonra ümumilikdə 300 nəfərə yaxın şəxs mina terrorunun qurbanı olub. Bu faktın özü Ermənistanın mina terrorunu getdikcə genişləndirdiyini, terrorun fəsadlarının yaxın gələcəkdə də daha da arta biləcəyini göstərir. Qeyd edək ki, Ermənistan ölkəmizə qarşı əsasən özündə istehsal edilən minalardan istifadə edir. Müvafiq dövlət qurumlarının apardıqları araşdırma nəticəsində məlum olub ki, aşkarlanan minaların bir çoxu 2021-2022-ci illərdə Ermənistanda istehsal edilib. Bu isə o deməkdir ki, həmin minalar müharibədən sonra basdırılıb. Bu fakt göstərir ki, rəsmi İrəvan sülh müqaviləsinin imzalanmasında maraqlı deyil və sadəcə imitasiya ilə məşğuldur. İrəvan terror və təxribatlar vasitəsilə Azərbaycanı zəiflətməyə, postmüharibə dövrünün reallıqlarını dəyişməyə çalışır. Məlumat üçün bildirək ki, Azərbaycan bugünədək beynəlxalq ictimaiyyətə Ermənistanın mina terroru ilə bağlı çoxsaylı faktlar, foto-videomateriallar təqdim edib. Bu faktların hər biri Ermənistanın beynəlxalq qanunlar əsasında məsuliyyətə cəlb edilməsi üçün kifayətdir. Ancaq təəssüf ki, beynəlxalq birlik bu məsələdə hələ ki, susur və bu susqunluq anlaşılan deyil. Dünya birliyi, beynəlxalq təşkilatlar ermənilərin mina terrorunu dayandırmaq üçün Ermənistanı məsuliyyətə cəlb etməli, ona qarşı konkret təzyiq mexanizmini işə salmalıdır. Ermənistanı mina terrorundan yalnız beynəlxalq birliyin gücü və təzyiqi ilə çəkindirmək mümkündür.

***"Ərazilərin minalardan tam təmizlənməsi üçün uzun zaman və milyardlarla manat vəsait lazımdır"***

**Demokratiya və İnsan Hüquqları İnstitutunun rəhbəri Əhməd Şahidov ”Şərq”ə açıqlamasında bildirib ki, mina terroru ən aktual və təhlükəli məsələ olaraq qalmaqdadır. Hüquq müdafiəçisi deyib ki, 2020-ci ilin noyabrından, yəni savaş bitəndən bu yana üç yüzə yaxın insan mina partlayışından zərər görüb, 50-yə yaxın insan həlak olub:** ”Müharibə bitsə də, Ermənistan hərbi cinayətini davam etdirir. Ərazilərimizin böyük hissəsi işğal dövründə minalarla doldurulsa da, üçtərəfli saziş imzalanandan sonra da erməni tərəfi torpaqlarımızda yenidən minalar basdırıb. 2021-ci il Ermənistanda istehsal olunan minaların aşkarlanması bunu isbat edir. Ermənilərin müxtəlif diversiya qrupları işğaldan azad edilmiş ərazilərimizə sızaraq minalar basdırıblar. Düşmənin əksər cəhdinin qarşısı alınsa da, müəyyən vaxtlarda öz təxribatlarını reallaşdırmaq imkanı əldə ediblər. Mina terroru ermənilərin ən çox ifşa olunması lazım olan məsələdir. Bunu bütün imkanlarımızı səfərbər edərək beynəlxalq təşkilatların, dünya ictimaiyyətinin diqqətinə çatdırmalıyıq. Hüquqi müstəvidə Ermənistanın cəzalandırılmasına, ifşa olunmasına və böyük miqdarda təzminat ödəməsinə nail olmalıyıq. Çünki bu məsələ uzun illər Azərbaycan xalqı üçün problemə çevriləcək. Ərazilərin minalardan tam təmizlənməsi üçün uzun zaman və milyardlarla manat vəsait lazımdır. Dövlətimiz bütün imkanlarını səfərbər edib. Biz də vətəndaş cəmiyyəti olaraq əlimizdən gələni etməliyik”.

**Ə.Şahidov vurğulayıb ki, işğaldan azad edilmiş ərazilərdə jurnalistlərin təhlükəsiz fəaliyyət göstərməsi də hələ mümkün deyil:** ”Ərazilər minalardan tam təmizlənməyib. Ötən müddət ərzində öz peşə fəaliyyətini yerinə yetirərkən ermənilərin basdırdığı minalara düşərək həyatını itirən azərbaycanlı jurnalistlər var. Onlar barədə beynəlxalq təşkilatlar öz hesabatlarında məlumat verməli və Ermənistanın müharibə cinayətləri cəzasız qalmamalıdır”.

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi;**

**Ölkənin ümumi iqtisadi inkişafında regionların sosial-iqtisadi həyatında görülən işlər böyük rol oynayır. İqtisadi inkişafda regional disbalansı aradan qaldırmaq Azərbaycan iqtisadiyyatının əsas problemlərindən biridir.**

Uzun illərdir ölkədə regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları icra olunur. Regionların inkişafı sahəsində qəbul edilən, həyata keçirilən proqramlarda, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulan vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin, sosial infrastruktur təminatının yüksəlməsinə, sahibkarlıq mühitinin yaxşılaşmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına və nəticədə əhalinin məşğulluğunun genişlənməsinə, yoxsulluq səviyyəsinin azalmasına gətirib çıxarıb.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilməsinə başlanan təmir-bərpa prosesinin həm Qarabağ, həm də ona bitişik ərazilərdə sosial-iqtisadi inkişafa təkan verəcəyi gözlənilir.

Yeri gəlmişkən, regionların inkişafı işğal altındakı torpaqlarımızın azad edilməsiylə yeni mərhələyə qədəm qoyub. Azərbaycan dövlətinin qarşısında Qarabağın aran, dağlıq hissəsi də daxil, Ağdam, Füzuli, həmçinin Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər rayonlarının daxil olduğu Şərqi Zəngəzur iqtisadi zonasının dirçəldilməsi kimi mühüm vəzifə dayanır.

Bu gün hökumətin üzərinə düşən vəzifə ikiqat artıb. Çünki Qarabağın dirçəldilməsi və 30 ilə yaxın müddətdə doğma yurda qayıdış həsrətilə yaşayan əhalinin el-obasına dönüşü həyata keçməlidir. Məhz bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə "Böyük Qayıdış"a dair I Dövlət Proqramı"nın Tədbirlər Planını təsdiqləyib. Tədbirlər Planı çoxşaxəlidir və sosial-iqtisadi həyatın bütün sahələrini əhatə edir.

Eyni zamanda sənəddə vurğulanır ki, işğaldan azad edilmiş ərazilərə "Böyük Qayıdış" məqsədinin reallaşdırılması üçün əhalinin dayanıqlı məskunlaşması təmin olunacaq. Əhalinin dayanıqlı məskunlaşması ərazilərdə planlaşdırılan zəruri ilkin şərtlərin yaradılması ilə dəstəklənəcək. İşğaldan azad edilmiş ərazilərin təhlükəsizlik sistemi və infrastrukturla tam şəkildə əhatəsinə nail olunacaq. Qabaqcıl şəhərsalma qaydaları nəzərə alınmaqla bölgədə yaşayış və qeyri-yaşayış kompleksləri inşa ediləcək, müasir infrastruktura malik "ağıllı şəhər və ağıllı kənd" konsepsiyaları həyata keçiriləcək. Bu əsasda bütün bölgə qabaqcıl standartlara uyğun sosial-iqtisadi və mədəni infrastrukturla tam təmin ediləcək. Kommunal xidmətlər şəbəkəsi, xüsusilə tullantıların səmərəli idarə edilməsi sistemi qurulacaq. Sosial xidmət infrastrukturu bərpa olunacaq. Nəticədə, ilkin strateji mərhələdə əhalinin təhlükəsiz, ləyaqətli və dayanıqlı qayıdışı əsasda planlaşdırılan məskunlaşmasına nail olunacaq. Əsas məsələlərdən biri əhalinin doğma yurda qayıdışının sürətləndirilməsi olduğundan, 2022-2025-ci illərdə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, yerli icra hakimiyyətləri və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyi ilə birgə 10 270, 2022-2026-cı illərdə isə 34 500 ailənin köçürülməsini təmin etməlidir.

Aradan az vaxt ötməsinə baxmayaraq, artıq işğaldan azad edilmiş ərazilərdə çoxlu sayda infrastruktur layihələrinin icrası uğurla başa çatıb. Yeni layihələrin icrası da intensiv şəkildə davam etdirilir. Bu günlərdə qaçqın və məcburi köçkün soydaşlarımız işğaldan azad edilmiş ərazilərə növbəti qayıdışın böyük sevincini yaşayıblar. Belə ki, Zəngilan rayonunun Ağalı kəndində "Ağıllı kənd" konsepti ilə inşa olunan yaşayış məntəqəsinə 90-a yaxın ailə köçürülüb. Yaxın vaxtlarda yeni belə layihələrin icrası da nəzərdə tutulub. Kəndlərlə yanaşı, böyük şəhərlərin də bərpasına start verilib və yaxın gələcəkdə bu ərazilərin inkişafının iqtisadi artımda ciddi paya malik olacağı proqnozlaşdırılır.

Yeri gəlmişkən, iki gün əvvəl də Tərtər rayonunun erməni işğalından azad edilmiş Talış kəndinə "Böyük Qayıdış" proqramı çərçivəsində ilk mərhələdə 20 ailə köçürülüb.

Bakı, Bərdə, Tərtər, Samux və Goranboyda, əsasən ağır şəraitdə, qəzalı vəziyyətdə olan müvəqqəti məskunlaşma yerlərində yaşayan 90 nəfər Novruz bayramı ərəfəsində öz dədə-baba yurdlarına qayıdıblar.

Qeyd edək ki, Azərbaycan hökuməti Talış kəndində ilk mərhələ üzrə bərpa və quruculuq işlərini yekunlaşdırıb. "Azəriqaz" İstehsalat Birliyi kəndə 11,1 kilometr uzunluğunda yeraltı polietilen qaz xətti çəkib. Həmçinin Talış kəndinə köçəcək sakinlərlə görüşdə evlərin püşkatma mərasimi keçirilib. Görüşdə həmçinin əhalinin məşğulluğuna dair işəgötürən və işəgötürülənlər arasında müqavilələr bağlanılıb.

**Azərbaycanda regionların inkişafının hər zaman prioritet olduğunu xatırladan millət vəkili Vüqar Bayramov deyib ki, dövlət başçısının mütəmadi olaraq bölgələrə səfəri rayonlarımızın inkişafı və bütövlükdə ölkədə balanslı iqtisadi inkişafın formalaşması məqsədi daşıyır:** "Regionların sosial-iqtisadi inkişafı ilə bağlı infrastruktur layihələri bu il də davam etdirilir. Mərhələli şəkildə, iqtisadiyyatın balanslı şəkildə inkişafı və regionlarla paytaxt arasındakı fərqin minimumlaşması müşahidə olunur. Regionların inkişafı ilə bağlı həyata keçirilən dövlət proqramları infrastrukturun formalaşmasına ciddi təkan verir. Artıq regionların inkişafı ilə bağlı yeni mərhələyə qədəm qoyulub. Bu, əvvəlki illərdə formalaşan infrastrukturun dəyərə çevrilməsi mərhələsidir. Təbii ki, bu da yeni iş yerlərinin yaradılması, eləcə də tək yerli yox, həm də xarici sərmayələrin cəlb edilməsi imkanları deməkdir. Ona görə də regionların sosial və iqtisadi inkişafla bağlı həyata keçirilən layihələr rayonlarımızda infrastrukturun daha da təkmilləşməsinə təkan verir".



# Məşğulluq imkanları və şəraiti genişlənəcək

## İşğaldan azad olunmuş ərazilərimiz, mövcud iqtisadi gücümüzə az qala 50 faizədək bərabər həcmdə əlavə güc qatacaq

*Millət vəkilinin sözlərinə görə, regionların inkişafında, eyni zamanda işğaldan azad olunmuş ərazilərimizin daha qısa zamanda bərpası, yenidənqurması və reinteqrasiyası prioritet olaraq gücləndirilməkdədir:* " İki ildən artıqdır ki, regionların inkişafı ilə bağlı, həm də işğaldan azad olunmuş ərazilərimizin bərpa və yenidənqurmasını müşahidə edirik. İşğaldan azad olunan ərazilərimizdə gün-gündən geniş vüsət alan bərpa işləri elə fikir yaradıb ki, guya, indiyədək böyük işlər görülmüş digər rayon və bölgələrimiz bundan sonra diqqətdən bir müddət kənarda qalacaq, yeni layihələrin icrası təxirə düşərək, işlər zəifləyəcək.

Əksinə, Qarabağın dirçəldilməsi digər regionların inkişafını nə arxa plana salacaq, nə də ki, gələcəkdə hər hansı disbalans yaradacaq. Qarabağ və Şərqi Zəngəzurun bərpa və yenidənqurması heç də digər bölgələrimizin diqqətdən kənar qalması anlamına gəlmir. 2023-ci il ərzində də digər bölgələrimizdə infrastruktur layihələri davam etdiriləcək. O cümlədən, yolların inkişafı, bərpası, yeni infrastruktur, nəqliyyat və kommunikasiya, logistik infrastrukturun genişləndirilməsi ilə bağlı işlər davam etdirilir. Cari ildə Şərqi Zəngəzurun qurulmasına 3 milyard manat vəsait ayrılıb. Digər bölgələrdə də infrastruktur layihələri 2023-cü ildə davam etdiriləcək".

İşğaldan azad olunan ərazilərimiz ilk növbədə qeyri-neft sektorumuz üçün böyük töhfələr əldə etməyə imkan yaradacaq. Söhbət, kənd təsərrüfatından, onun heyvandarlıq və bitkiçiliyindən, tikinti materialları əldə etmək üçün zəruri xammal bazasından, turizmdən, şərab və araq istehsalından və sairdən gedir. Həmin zona həmçinin faydalı qazıntılarla və mineral sularla zəngindir.

İşğaldan azad olunmuş ərazilərimiz, mövcud iqtisadi gücümüzə az qala 50 faizədək bərabər həcmdə əlavə güc qatacaq. Yeni ticari və iqtisadi imkanlar yaranacaq. Məşğulluq imkanları və şəraiti genişlənəcək. Sadəcə, bunu hərəkətə gətirmək lazımdır. İlk növbədə infrastruktur yaradılmalı, azad edilmiş ərazilərin potensialının realizəsi məqsədilə tələb olunan ilkin şərtlər həllini tapmalıdır".

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# "Vedidə mənim baba yurdum var"

## Yeganə Kərimzadə: "Orada bir dəfə atamla olmuşam və o an da Vətən sevgisinin nə olduğunu dərk etmişəm"

**Novruz bayramı günlərində xalqımızın sevimlilərini yad etmək "Şərq"də ənənə halını alıb artıq. Müsahibimiz Yeganə Kərimzadədir - xalqın yazıçısı, ustad Fərman Kərimzadənin övladı. Bayram günlərində Yeganə xanım "Şərq"ə deyil, biz ona qonaq olduq. İşi başından aşsa da, bizə vaxt ayırdı. "El içində, öl içində" deyən Fərman Kərimzadənin övladıdır çünki. Fərman Kərimzadə ocağının qapısı isə kimsəyə bağlı qalmaz!.. Yeganə xanımla söhbət etmək istədiyimizi bildirəndə nəzakətlə "bir az işim var, biş-düş, xəmir işi Olar sabah danışaq?" soruşdu. Azərbaycan xanımlarının bayramqabağı iş-gücü bitirmi ki?!. Təbii, razılaşdıq. Hələ "əl Amanda" sual da verdim: "Yeganə xanım, Bakı şirniyyatı bişirirsiniz, yoxsa İrəvan?" O da "mən Bakıda doğulub böyümüşəm. Amma İrəvan yeməkləri də hazırlayıram", dedi.**

*Bayram hazırlıqlarına ertəsi gün qısa fasilə verən Yeganə xanımla söhbətimiz başladı:*

**- Yeganə xanım, bizə vaxt ayırdığınız üçün sizə minnətdarıq. Bilirsiniz ki, atanız - hamımızın sevimlisi Fərman Kərimzadəyə sayğımız sonsuzdur. Allah ustad yazıçımıza, xalqımızın sevimlisinə qəni-qəni rəhmət eləsin. Ruhu şad olsun. Novruz günlərində Fərman müəllimi yad etmək boynumuzun borcudur. Atanızın axır çərşənbəyə, bayram axşamına xüsusi önəm verdiyini, ailə üzvlərinin mütləq bir masa arxasında olmasına çalışdığını qeyd edirsiniz. Fərman müəllimin bu inancı sizcə nəyə bağlı idi? İstəyirəm bir qədər dərinə enək. O mənada ki, hamımız bayram axşamları evdə, ailə ilə birlikdə olmaq istəyirik, maksimum buna çalışırıq. Bu inancın altında nə yatır sizcə? Bu, sadəcə ənənəyə kor-təbii bağlılıqdır, yoxsa hər bir azərbaycanlının şüuraltısından, kökdən, mayadan qaynaqlanan istək, vacibat?**

- Əvvəlcə, Fərman Kərimzadə adına, şəxsiyyətinə dəyər verib yad etdiyiniz üçün sizə minnətdaram. Suala qalanda isə məncə, onun dərin kökləri var. Atam adət-ənənələrə çox bağlı insan idi. Onun "Vedinin yanı dağlar" adlı etnoqrafik romanı atamın el-obaya. vətənə, adət-ənənələrə necə bağlı olduğundan xəbər verir. Ailəmizdə də Novruz bayramı xüsusi qeyd olunardı. Hətta yadımdadı ki, biz balaca olanda atam bibim Sara xanımla Novruz bayramında oynanılan oyunları bizə öyrədirdilər. Uşaq vaxtı evimizdə ən maraqlısı atamın "rejissorluğu" ilə bizim tamaşa hazırlamağımız olurdu. Sonra da atam özü, bibilərim, anam, nənəm tamaşaçı kimi bizi seyr edərdilər. O dövr üzlərdə kədər yox, sevinc vardı. Xoşbəxt günlərimizi yadıma saldınız



*"Əlbəttə, ora getmək mənim ən böyük arzumdu. Onda babamın, nənəmin, bibilərimin, əmilərimin və atamın da ruhu şad olar"*

**- Atanız vəfat etsə də, hər bayramı, şübhəsiz, həm də onunla keçirmisiniz. Və keçirirsiniz. Necə hissdir bu, atalı-atasız bayram keçirmək?**

- 1989 cu il 17 mart ən ağır axır çərşənbə oldu mənim üçün. O gündən otuz dörd il keçsə də, o yoxluğa hələ də alışa bilmədim. Düz otuz dörd ildir hər bayram mənim süfrəmdə bir əlavə qab olur. Atasız, anasız, hansı yaşda olursan ol, onlarsız boynu bükük olursan.

**- Ananız haqqında da danışın. Ananız Novruza nə hazırlaşardı? Onun hansı adətlərini siz yerinə yetirirsiniz, "anam belə edərdi" deyib onu təkrarlamağa çalışırsınız?**

- Anam yeddi uşaqlı evin ikinci ərköyün qızı olub. Oxumaq, təhsil almaqdan başqa fikri olmayıb. Ailəsi ona bu şəraiti də yaradıb. Atamla tələbə vaxtı evlənsələr də, atam da anamın təhsil almasına mane olmayıb. Anama yemək bişirməyi atam öyrədib. Amma anam da pis "tələbə" olmayıb. Çox evdar qadın idi. Gözəl əl qabiliyyəti vardı. Dörd övlad anası idi, hər şeyin gözəlini bizim üçün edərdi. Çox qürurlu qadın idi. Bir çətinliyi olsa onu biz övladlarına belə bildirməzdi. Biz evdə rahatlıq, təmizlik, isti yemək görərək böyüdük. Anam bizə kitab oxumağı sevdirdi. Özünün bir günü də mütaliəsiz keçməzdi. Atam yazanda onu bizdən belə qoruyardı. Evdə sakitlik yaradar, barmaqlarının ucunda kişinin çayını, suyunu aparıb yanına qoyardı. Atam evdən gedəndə də, gələndə də biz onu ayaq üstə yola salıb qarşılardıq. Bu, anamın qaydası, ərinə olan sevgisi, hörməti idi. Hər bir addımımda anama bənzəməyə çalışıram. Bəlkə də çalışmağa ehtiyac yoxdur, çünki övladlar ata-anaların davamıdı.

**- Yeganə xanım, doğma yurda, Vedidə Novruz adətləri necə idi? Bu haqda nə bilirsiniz? Yaxın qohumlar bu barədə danışırdımı?**

- Bibilərim, atam danışardı, o söhbətlərdəki həsrət daha çox yadımdadı...

**- Maraqlı həm də budur ki, Fərman Kərimzadə Ə.Əzimzadə adına rəssamlıq məktəbini bitirib. Səhv etmirəmsə, sonra da Moskva Kinematoqrafiya İnstitutunda təhsil alıb. Yəni filologiya, ədəbiyyat, dil üzrə təhsil almayıb, amma nəhəng əsərlər yazıb, bizə miras qoyub. Yəqin ki, mayalandığı torpaq, nəsil-kök özünü göstərir. Həm də yəqin ki, xalq, millət yanğısı. Tariximizi xalqa olduğu kimi çatdırmaq yanğısı.**

- Atam əslində tarixçi olmaq istəmişdi. BDU-nun tarix fakültəsinə də imtahan verir. Balı aşağı olduğu üçün Əzim Əzimzadə adına rəssamlıq məktəbinə daxil olur. Sonradan məlum olur ki, atam son dəmə, tarix fakültəsinə qəbul olunubmuş, amma zaman elə imiş ki, bu xəbəri ona gec çatdırıblar. Rəssamlıq məktəbindən sonra müəllim işləyir və Moskva Kinematoqrafiya İnstitutuna qəbul olunur. O, yaradıcı insan idi. Harda təhsil almağından asılı olmayaraq o, yazıçı olacaqdı. Yaşadığı dövr, tarixi hadisələrin cərəyanı, uşaqlıqdan ürəyində yaşadığı köçürülmə onun yaddaşına hopmuşdu. Bu insan hər bir olanın cavabını tapmağa çalışan biri idi. Cavabsız suallar qarşısında aciz qalmaq ona aid deyildi. Araşdırmaları, tarixə bağlılığı onu yazıçı etməyə bilməzdi, etdi də. Atam beş tarixi roman yazıb, hər biri tariximizin araşdırılmamış mövzusu idi. Yazıçı kimi o, vətəndaş mövqeyini əsərləri ilə göstərməyi bacardı. Bu sözü övladı kimi yox, bir Azərbaycan ziyalısı kimi tam məsuliyyətimlə deyirəm.

**- F.Kərimzadənin rəsm əsərləri də varmı? Çəkilən filmlərdə özü, yaradıcı, istedadlı insan olaraq, məsələn, rəssamlıqla, səhnələrin qurulması, quruluş verməklə bağlı hansısa məsləhətlər verirdimi?**

- Atam yazıçı idi. Rəssamlıq təhsili içindəki istedadın üzə çıxmasında ona kömək etmişdi. Mən özüm də bu yolu keçmişəm. İlk təhsilim rəssamlıq məktəbi olub. Sonra başa düşdüm ki, mən çəkməsəm qala bilərəm, yazmasam ölərəm. Atamı onda dərk etdim. Bəli, onun rəsm əsərləri var. Amma filmlərə rəssam kimi quruluş verməyib. Etsəydi, məncə, çox uğurlu olardı. O, yazmağı üstün tuturdu. Tələsirdi. Bəlkə də belə tez gedəcəyini duymuşdu, deyə bilmərəm

**- Maraqlıdı, məsələn, hansı mövzulara da rəsmlər çəkirdi?**

- Atam adətən natürmort və portretlər çəkərdi. Peyzajlar da vardı. Anamın portretini çox gözəl işləmişdi. Qardaşımın portreti də maraqlı idi. Amma məni çəkmədi. Deyirdi sənin xarakterini müəyyən edə bilmirəm. Onun portretlərində xarakter vacib idi.

**- Yeganə xanım, tarixi torpaqlarımıza qayıdışla bağlı sizin fikrinizi bilmək istəyirəm. Bu məsələyə baxışınız necədi? Hansı hissləri keçirirsiniz...**

- Tarixi torpaqlarımıza qayıdış əlbəttə həyəcanvericidir. Ən böyük arzum bir daha Vedidə olmaqdır. Ora mənim ata yurdumdur. İrəvan bizim torpağımızdır. Vətəndən vətənə qayıdış arzuların reallaşması ola bilər. Bu yolda Ali Baş Komandanımıza yalnız uğurlar arzulaya bilərəm.

**- Atanız olsaydı, sizcə indi o, hansı işlərlə məşğul olardı? Məncə, tək-tək axtarıb arayacaqdı vedililəri. Kim həyatdadır, kim köçüb. Məlum məsələdir, həyatda ikən də belə idi, Bakıda yaşasa da, Vedidən kənar olmayıb heç vaxt. Sırf iş görmək, yardım etmək baxımından nəzərdə tuturam.**

- Atam sağ olsaydı... O, yüz faiz biznesmen olmazdı. "El içində, öl içində" deyən adam əvvəl necə idisə, yenə də elə olardı. Atam başqa insan idi. Düşmənlərimiz ona Koroğlu deyirdilər, çəkinirdilər ondan. Dostları onu bir gün görməyəndə darıxardılar, evimiz aşıb-daşardı gedib gələnlərlə. Onu çox sevirdilər. Bu sevgini mən 1989-cu il martın 17-də bir daha gördüm. Atamı evdən aparırdılar, izdiham vardı yolda. İnsanlar onun cənazəsini maşına qoymaq istəmirdi. Çiyinlərində aparırdılar onu. Tbilisi prospektində maşınlar belə dayanmışdı. Prospekt boyu insan axını vardı. Onu yola salıb, eyvandan arxasınca əl edirdim. Eyvanımıza ağ göyərçinlər qonmuşdu. İzdiham getdikcə göyərçinlər də onların ardıyca uçurdu. Sonra mənə dedilər ki, atamı torpağa qoyanda iki dəqiqə yağış yağdı. Bu, mistika deyil, göylər də onu sevirdi. Belə insan çox yaşaya bilməzdi...

**- Vedidə yaşamağa hazırsınızmı? Gedərsinizmi ora? Evinizi, yurdunuzu bərpa etmək istəyirsinizmi?**

- Mən Vedidə bir dəfə atamla olmuşam və o an da Vətən sevgisinin nə olduğunu dərk etmişəm. Vedidə mənim baba yurdum var. Əlbəttə, ora getmək mənim ən böyük arzumdu. Onda babamın, nənəmin, bibilərimin, əmilərimin və atamın da ruhu şad olar. Bu missiya - Vətənə qayıdış mənə qismət olarsa, deməli, bu dünyada əbəs yaşamadım. Mənə qismət olmasa, oğullarımız - atamın adını daşıyan qardaşım oğlu Fərman Kərimzadə var, o mütləq dədə-baba yurduna sahib çıxar. Təki, bunu görmək bizə nəsib olsun...

**- Yeganə xanım, siz atanızla bağlı sənədli film üzərində işləyirsiniz. Vəziyyət necədi? Hansı mərhələdədi film?**

- Sənədli filmə maliyyə məsələsini həll etməyə çalışıram. Hələ ki, bu dəstək yoxdu. Mən adi sənədli film istəmirəm. Bu film sənədli-bədii film olmalıdı. O da bir qədər maliyyə tələb edir. Hər halda həll etməyə çalışacam.

**- Kim yaradacaq Fərman Kərimzadənin obrazını?**

- Obrazı yaradacaq adamı gözaltı eləsəm də, özünə heç nə deməmişəm. Gəncliyini biri, 50 yaşlarındakı dövrünü isə digər aktyor canlandırmalıdır. "50 yaşlı" Fərman Kərimzadəni tapmaqda çətinlik çəkirəm, amma axtarıram...

**Söhbətləşdi: Məlahət Rzayeva**

# İş təkcə sürət həddini endirməklə bitməyəcək

## Təhlükəsizliyi artırmaq üçün dövlət proqramında nəzərdə tutulan xeyli digər işlər də görülməlidir




**”Bakı şəhərinin və Abşeron yarımadasının bəzi küçə və yollarında sürət həddinin dəyişdirilməsi ilə bağlı qərar keçmişdə buraxılmış ciddi səhvlərin düzəldilməsidir”.**

Bu sözləri ”Şərq”ə açıqlamasında hüquqşünas, nəqliyyat eksperti Ərşad Hüseynov deyib.

Ekspertin sözlərinə görə, vaxtilə sürücüləri sıx məskunlaşma ərazilərindən keçən küçə və yollarda yüksək sürətə öyrəşdirən belə səhvlər olmamalıydı, yaxud çoxdan aradan qaldırılmalıydı: ”Nəhayət ki, edildi. Amma iş təkcə sürət həddini endirməklə bitməyəcək. Təhlükəsizliyi artırmaq üçün dövlət proqramında nəzərdə tutulan xeyli digər işlər də görülməlidir. Məsələn, yol tikəndən başlamış yolda nişan qoyanadək hər kəsin peşəkar və məsuliyyətli fəaliyyətinin təmini, sürücü hazırlığı və sürücü olma işinin təkmilləşdirilməsi, cəmiyyətdə təhlükəsiz davranış mədəniyyətinin formalaşdırılmasıdır.

Ən ciddi işlərdən biri də qəbul edilən qərarların düzgünlüyünün və ən yaxşısı olduğunun cəmiyyətə çatdırılması, insanların buna inandırılmasıdır. Qərar qəbul edənlər (bu halda DYP və BNA) müasir elmi-texniki yanaşmalara istinadla insanları inandırmalıdırlar ki, belə qərarlar daha çox cərimə tətbiqinə, yolda daha çox vaxt itirilməsinə yox, hər kəs (piyada, sürücü, sərnişin) üçün daha təhlükəsiz və daha fasiləsiz, daha dayanıqlı və etibarlı hərəkət (mobillik) mühitinin yaradılmasına xidmət edəcək”.

***"Ən ciddi işlərdən biri də qəbul edilən qərarların düzgünlüyünün və ən yaxşısı olduğunun cəmiyyətə çatdırılması, insanların buna inandırılmasıdır"***

Ə.Hüseynov deyib ki, sürət hədləri ilə bağlı son qərar hələ tətbiq edilməyib. Onun icrası üçün yollarda hərəkətin təşkilinə uyğun dəyişikliklər edilməlidir.

*Qeyd edək ki, Bakıda bu küçə və prospektlərdə sürət həddinin endirilməsi təklif olunur. Bakı Nəqliyyat Agentliyinin (BNA) İdarə Heyətinin sədri Vüsal Kərimli feysbuk sosial şəbəkə hesabında məlumat yayaraq bildirib ki, statistikalar paytaxt ərazisində baş verən yol-nəqliyyat hadisələrinin əsas səbəblərindən birinin də, yüksək sürət həddi olduğunu göstərir. Bakı Nəqliyyat Agentliyi tərəfindən yol hərəkəti təhlükəsizliyi səviyyəsinin artırılması, nəqliyyat axınlarının effektiv idarəolunması məqsədilə 14 yol sahəsində sürət hədlərinin endirilməsi ilə bağlı təkliflər hazırlanıb və Baş Dövlət Yol Polisi İdarəsi ilə razılaşdırılıb. Sözügedən yol sahələrində mərhələli şəkildə müvafiq yol nişanları quraşdırılacaq. Sürücülərimizin sürət hədlərinə riayət edəcəyinə inanırıq”.*

**Şəymən**

# “Bakcell"dən rəqəmsal yeniliklər!




**Bakcell şirkəti rəqəmsal yeniliklərini təqdim edib. Yeni Bakcell tətbiqi və internet səhifəsi abunəçilərə rəqəmsal texnologiyaların üstünlüklərindən istifadə etməklə ən üstün müştəri təcrübəsindən yararlanmaq imkanı verir.**

İndi Bakcell abunəçiləri müxtəlif xidmətlərdən daha sürətli, asan və heç yerə getmədən istifadə edə biləcəklər.

Yeni Bakcell tətbiqi üztanıma texnologiyası, onlayn çat, ödəniş və loyallıq proqramının tətbiq olunduğu çoxfunksiyalı platformadır. Tətbiqdəki üztanıma texnologiyası sayəsində eSIM nömrə almaq və ya mövcud Bakcell nömrəsinin eSIM dublikatını çıxarmaq üçün onlayn müraciət etmək kifayətdir.

”Bakcell”in təqdim etdiyi yeni internet səhifəsi də abunəçilərin rahatlığını təmin etmək üçün bir çox rəqəmsal funksiyalara malikdir. Abunəçilər artıq Bakcell saytı vasitəsilə nömrə ala, özlərinə uyğun tarif və digər xidmətləri seçə bilərlər.

Yeni rəqəmsal təcrübə ilə www.bakcell.com internet səhifəsində tanış olmaq mümkündür. Tam yeni Bakcell tətbiqini https://onelink.to/bakcelllinkindən həm Android, həm iOS platformalarında işləyən mobil cihazlara yükləmək olar.

*Qeyd edək ki, Bakcell şirkəti ”NEQSOL Holding”in tərkibinə daxildir.*

# Tiktok məlumatları Çin hökumətinə ötürür

## Daha bir qadağa da Yeni Zelandiyadan gəlib




**Sosial media platforması tiktokun bütün dünyada istifadəçi məlumatlarını Çin hökuməti ilə paylaşa biləcəyi ilə bağlı narahatlıqlar artır.**

”Şərq” xəbər verir ki, Çində yerləşən ”ByteDance” şirkətinə məxsus Tiktoka bir qadağa da Yeni Zelandiyadan gəlib.

Belə ki, ölkədə millət vəkilləri və digər parlament məmurlarının istifadə etdiyi dövlət telefonlarında Tiktok tətbiqinin təhlükəsizlik səbəbi ilə qadağan edildiyi açıqlanıb.

Ayın sonundan etibarən qüvvəyə minəcək qadağanın ABŞ və İngiltərədəki kimi bütün dövlət işçilərinə deyil, parlament binasındakı 500 nəfərə şamil ediləcəyi vurğulanıb.

Parlament xidmətlərinin rəhbəri Rafael Qonzales-Montero, qərarın hökumətin kibertəhlükəsizlik üzrə ekspertlərinin məsləhəti ilə verildiyini söyləyib. ”Bu qərar ekspertlərimizin təhlili və beynəlxalq həmkarlarımızla müzakirələr əsasında qəbul edilib”, - Montero bildirib. Xatırladaq ki, Yeni Zelandiyanın Baş naziri Kris Hipkins də jurnalistlərə telefonunda tiktok olmadığını söyləyərək, ”Mən o qədər də müasir və dəbli deyiləm” demişdi.

**Nihat**

# “Həcc ziyarəti boykot edilsin"

## Tural İrfan: “10 min pul həddən artıq böyük məbləğdir”



**Qafqaz Müsəlmanları İdarəsi bu il Həcc ziyarətinə getmək istəyən vətəndaşlar üçün qiymətləri təyin edib. Bir nəfərlik ziyarət paketinin qiyməti 5750 ABŞ dollardır (9 775 AZN). Builki ziyarət azərbaycanlı zəvvarlar üçün vahid formada təşkil olunacaq və təyyarə reysləri vasitəsilə həyata keçiriləcək.**

Sənədlərin qəbulu 17 mart tarixindən başlanacaq. Pandemiya səbəbindən 65 yaşdan yuxarı şəxslərin Həcc ziyarətinə qoyulan məhdudiyyət aradan qaldırılıb. Yaş məhdudiyyəti aradan qaldırılsa da, zəvvarlardan COVID-19 pasportu tələb olunacaq. Qeyd edək ki, bu məbləğ ötən il 5350 dollar idi.

Həcc ziyarət paketinin qiymətinin yüksəlməsi ilə bağlı ”Şərq”ə danışan ilahiyyatçı Tural İrfan bildirib ki, məbləğin fantastik olması düzgün deyil: ”Bunu insanlar xoş qarşılamır. Qeyri-müsəlmanlar belə tənqid hədəfinə çevrilir. Hesab edirəm ki, qiymətləri təyin etmək Həcc ziyarətini həyata keçirən dövlətin müvafiq qurumunun nəzarətindədir. Qafqaz Müsəlmanları İdarəsi ilə birgə qiymətlərlə bağlı ortaq qərara gəlirlər.

Tənqid olunmalıdır. Hətta insanlar Həcc ziyarətinə getməsinlər, boykot etsinlər. Həcc ziyarəti azərbaycanlı, müsəlman vətəndaşlar üçün vacib deyil.

Çünki ölkəmizdə kifayət qədər sosial problemi ağır, acyalavac insanlar var. Peyğəmbərimiz deyir, qonşusu ac ola-ola tox yatan məndən deyil. Ətrafımızda sosial problemli insanlar olduğu halda, 10 min pul verib Həcc ziyarətinə getməyə nə lüzum var? Həddən artıq böyük məbləğdir. ”Qurani-Kərim”də də israfçılığa yol vermək günah sayılır.

Həmin məbləğin süni şəkildə artırıldığını hamı bilir. Amerikaya getsək, heç o qədər xərc çıxmaz. Deməli, müəyyən maraqlar güdülür, tamahkarlıqdır. Görünür, kimlərsə ziyarətdən sui yararlanaraq pul qopartmaq niyyətindədir.

Buna alət insanlar da, həmin şəxslərə xidmət göstərmiş olur. Qiyməti artırmaq günahdır. İnsanlar da havayı yerə yüksək məbləği ora verməsinlər”.

**Aygün Tahir**

# Qəbul imtahanlarına bıçaq və qumbaranın keçirilməsi həqiqətdir

## Bu kimi halların açıqlanmaması isə valideynlərdə və cəmiyyətdə təşviş yaratmamaq üçündür



**”Sosial şəbəkələrdə şagirdlər tərəfindən paylaşımlar edilir. İmtahandan öncə kim hansı zala düşüb, bir-birilərini tapırlar ki, köməkləşsinlər”. Bu sözləri Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə ali təhsil müəssisələrinə sənəd qəbulunun başa çatması, buraxılış imtahanlarının gedişatı ilə əlaqədar keçirdiyi mətbuat konfransında deyib.**

O qeyd edib ki, bu paylaşımlardan DİM-in də xəbəri var: ”Bizim nəzarətçi müəllimlər artıq əvvəldən bilirlər ki, hansı zalda, hansı imtahan binasında necə problemlər ola bilər. Onlar imtahana hazırlıqlı daxil olurlar. İmtahan zalına müxtəlif əşyalar, daha çox telefon keçirmək istəyənləri müşahidə etmişik. Hətta bıçaq, qumbara keçirmək istəyənlər də olub. Bunu şişirtməmişik. Hüquq-mühafizə orqanlarına müraciət olunur və belə hallarla bağlı onlar tədbir görürlər. Təəssüf ki, bəzən belə hallar olanda insanlar sosial şəbəkələrdə qaydaları pozanlar əvəzinə, bizi qınamağa cəhd edirlər”.

**Təhsil eksperti Elçin Əfəndinin ”Şərq”ə açıqlamasına görə, sosial şəbəkələrdə Məleykə Abbaszadənin sözlərinin lağ-lağıya çevrilməsi və qeyri-ciddi qəbul edilməsi doğru yanaşma deyil.** Təhlükəsizlik nöqteyi-nəzərindən bu məsələ kifayət qədər ciddidir. Ekspertin sözlərinə görə, bu, abituriyentlər imtahana niyə qumbara aparır məsələsi deyil. ”İmtahan zalına hansısa alətlər, bıçaq və qumbara keçirmək istəyənlər olub” deyəndə söhbət imtahan verən şagirdən yox, abitruyent adı ilə binaya daxil olmağa çalışan təxribatçılardan gedir: ”Qəbul imtahanlarına bıçaq və qumbaranın keçirilməsi hər nə qədər cəmiyyət tərəfindən birmənalı qarşılanmasa da, bunlar həqiqətdir. Hətta sonuncu, 12 mart tarixində keçirilən qəbul imtahanında belə əvvəlki il məzunu olan 3 nəfər binanın arxa pəncərəsindən otağa daxil olaraq, imtahanın gedişatını pozmağa cəhd göstəriblər. Bu kimi halların açıqlanması isə valideynlərdə və cəmiyyətdə təşviş yaratmamaq üçündür. İmtahanlarda kütləvilik çox olur. 50400 nəfər abitruyent iştirak edirdi. Bu isə o deməkdir ki, bir imtahan binasında 800-900 uşaq imtahan verir. Ona görə də təxribatçılar üçün imtahan binaları əlverişli mühit olur. Məhz bu kimi təxribatların qarşısını almaq üçün də Dövlət İmtahan Mərkəzi müvafiq qurumlar ilə birgə işləyir. Xüsusi mühafizə və hüquq-mühafizə orqanları tərəfindən imtahan keçirilən binalarda yüksək təhlükəsizlik tədbirləri həyata keçirilir”.

**Şəymən**

**Elan**

Məmmədov Elgün Akif oğluna Bakı şəhəri, Binəqədi rayon Xocəsən Bələdiyyəsi, Qərar № 24/36, torpaq sahəsinin alqı-satqı müqaviləsi, ödəniş qəbzləri itdiyi üçün etibarsız sayılır.

# AÇIQ HƏRRACIN KEÇİRİLMƏSİNƏ DAİR ELAN

Ləğv prosesində olan ”Standard Insurance” Sığorta Şirkətinin Ləgvetmə komissiyasının 14.03.2023-cü il tarixli, 14/03/2023 saylı sifarişi ilə Ləğv prosesində olan ”Standard Insurance” Sığorta Şirkətinə məxsus aşağıdakı rəsm əsərləri açıq hərraca çıxarılmışdır.

| S/S | Rəsm əsəri | Rəssamın adı | Ölçü | Hərrac dəyəri | Behin məbləği |
|---|---|---|---|---|---|
| 1 | Şəkil “ Bakı" | Həsən Daşdəmir | 60x82 | 1.200 | 60 |
| 2 | Şəkil “Hind Motivi" | M.Abdullayev | | 860 | 43 |
| 3 | Şəkil “Köhnəməscid" | Anar Hüseynzadə | 60x48.5 | 350 | 17,50 |
| 4 | Şəkil "Kəndimiz" | A.Mirzəyev | 60x80 | 500 | 25 |
| 5 | Şəkil "EtyudPambıqçı" | Böyükağa Mirzəyev | 28x18 | 800 | 40 |
| 6 | Şəkil “Qızqalası” | Təbriz Abdullayev | 55x118 | 1.700 | 85 |
| 7 | Şəkil “Bakı” | Sübhan Məmmədov | 80x120 | 1.500 | 75 |
| 8 | “Mənzərə” | Eyyub Məmmədov | 25.5x34 | 350 | 17,5 |
| | | Cəmi: | | 7.260 | 363 |

İlkin hərrac 07 aprel 2023-cü il, saat 10:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

İlkin hərracda iştirak üçün satış qiymətinin 5%-i məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac sifarişçisinin aşağıda göstərilən hesablaşma hesabına ödənilməlidir.

Adı: Ləğvprosesindəolan ASC ”Standard Insurance” SığortaŞirkəti
Hesab №: AZ52PAHA35090AZNHC0190000581
VÖEN: 1300115641
Bank Adı: Paşa Bank ASC
Kodu: 505141
VÖEN: 1700767721
Müxbirhesab: AZ82NABZ01350100000000071944
S.W.I.F.T. PAHAAZ22

Hərrac addımı-elan edilmiş qiymətin ən azı 1%-i qədər olmalıdır.

Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən azı 1 (bir) iş günü qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır:

* Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq);
* Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd;
* Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;
* Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;

**Açıq hərrac Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 415-ci maddəsinin və sifarişçi LPO ASC ”Standard İnsurance” Sığorta Şirkəti ilə hərracın təşkilatçısı ”Əmlak Hərrac Mərkəzi” MMC arasında bağlanmış Müqavilə və LPO ASC ”Standard İnsurance” Sığorta Şirkətinin əsas vəsaitlərinin açıq (və ya qapalı) hərracda satışı üzrə sifarişlərin verilməsi, hərracın təşkili, keçirilməsi və rəsmiləşdirilməsinin prosedur Qaydaları”nın tələblərinə uyğun həyata keçiriləcəkdir.**

**QEYD:** Qaydaların tam mətni ilə www.e-herrac.com saytından tanış oluna bilər.

**Hərracın təşkilatçısı**
**”Əmlak Hərrac Mərkəzi” MMC**
*Ünvan: Bakı şəhəri, Yasamal ray., Kazım Kazımzadə 123.*
*Tel: (+99450) 210-66-47*
*e-mail: info@e-herrac.com*
*rəsmi internet saytı: e-herrac.com*
*Sifarişçinin əlaqə telefonları: 050-253-33-05 ; 055-213-51-35*

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
“Muğanbank” ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 721



## Aqressiv və zorakı davranışlar artır

### Ekran asılılığı olan yeniyetmələrin beyin strukturunda dəyişikliklər olur

**Avstraliyanın Makquari Universitetində psixologiya üzrə tədqiqat aparan dosent doktor Veyn Varburton komputer və ya smartfonlarda videooyunlara həddindən artıq aludə olan insanların beyin quruluşunda mənfi dəyişikliklər əmələ gəldiyini açıqlayıb.**

"Şərq" "Habertürk"ə istinadən bildirir ki, psixoloq COVİD-19 qapanmalarından sonra uşaqlar və yeniyetmələr arasında apardığı araşdırma zamanı "ekran aludəçisi" olanların daha aqressiv və zorakı davranışlarının artdığını bildirib. Buna səbəb isə beynin prefrontal korteks bölgəsində meydana gələn dəyişiklikdir. Uşaq və yeniyetmələrin aqressivliyinin əsl səbəbi budur. Psixoloq "ekran aludəçisi" kimi qeydə aldığı uşaq və yeniyetmələrin 100-də 10 faizinin təhlükəli miqyasda "oyun aludəçisi", 3 faizininsə daha ciddi bir şəkildə "oyun xəstəsi" olduğunu müəyyənləşdirib. "Prefrontal korteksdə meydana gələn dəyişikliklər, yeniyetmələrin duyğularına nəzarət etməsini, məşğul olduqları işə diqqət yönəltmələrini, çalışqan olmalarını əngəlləyir", söyləyən Veyn Varburton uşaqlar arasında hətta intihara meyilli olanları gördüyünü deyib. Psixoloq hesab edir ki, kompüter oyunlarından ailəsi tərəfindən zorla uzaqlaşdırılmağa çalışan uşaqlar daha da depressiv və intihara meyilli olurlar. Videooyunlar uşaq və yeniyetmələrin beynində ünsiyyət hüceyrələrinə də mənfi təsir edir. Psixoloq mövcud durumu dəyişdirmək üçün Almaniya araşdırma mərkəzi ilə birlikdə tədqiqat apardıqlarını bildirib.

**Məlahət**

## Əfsanəvi futbolçu Ronaldinyo İstanbuldadır



**Əfsanəvi ulduz Ronaldinyo meneceri və komandası ilə Türkiyəyə gəlib.**

42 yaşlı futbolçu İstanbulda reklama çəkiləcək.

Meneceri və böyük bir qrup köməkçisi ilə Paris üzərindən İstanbul hava limanına enən Ronaldinyo Beşiktaşdakı hotelə yollanıb.

21 mart 1980-ci ildə Braziliyanın Porte Algegra şəhərində anadan olan Ronaldinyo, Qremioda 47 qolla başladığı 17 illik karyerası ərzində "Paris Saint-Germain", "Milan" və "Barselona" da daxil olmaqla 8 komandada futbol oynayıb.

Ronaldinyo iki dəfə FİFA-nın "Dünyanın ən yaxşı oyunçusu" və "Qızıl top" mükafatını qazanıb.

**Turan**

## Murat Boz saç əkdirib



**Saç əkdirən məşhur müğənni Murat Boz yeni fotosunu paylaşıb.**

**Uzun illər seyrək saçlarına görə taxma saçlardan istifadə edən Murat Boz nəhayət ki, qərarını verib və saç əkdirib.**

**Aylarla papaqla gəzən məşhur estrada müğənnisi sosial media hesabında son halını paylaşıb.**

**43 yaşı tamam olan Murat Bozun fotosunu görənlər "İllər də onu dəyişməyib" deyə şərhlər yazılıb.**

## Demetlə Oğuzhan ayrıldı

### Mübahisə səbəbindən aktrisa evi tərk edib



**Türkiyəli aktrisa Demet Özdəmirlə həyat yoldaşı müğənni Oğuzhan Koç ayrılıb.**

**Axşam.az xəbər verir ki, cütlük arasında yaranan mübahisə səbəbindən aktrisa evi tərk edib. Bildirlib ki, zəlzələ səbəbindən böyük əyləncə təşkil etməyən Demet ad gününü yaxın dostları ilə qeyd edib. Dostunun evində baş tutan əyləncədə Oğuzhanın hərəkətləri aktrisanı əsəbiləşdirib və o, gecəni rəfiqəsigildə keçirib. Daha sonra barışan ikili arasında yenidən mübahisə yaranıb və Demet evi tərk edib.**

***Qeyd edək ki, Demet və Oğuzhan ötən il nikah masasına əyləşib. Onlar toydan bir müddət əvvəl də ayrılmışdı.***

## İzləyicilər Şeymanı tanıya bilmədi



**Şeyma Subaşı üzündəki dəyişimlə gündəmə gəlib.**

**Olay xəbər verir ki,sosial media fenomeni Mayamidən yeni fotosunu izləyicilərlə bölüşüb.**

**Sözügedən şəkildə Şeymanın estetik prosedurlara üz tutması diqqətdən qaçmayıb.**

**Belə ki, Subaşı o qədər dəyişib ki, izləyicilər onu tanımaqda çətinlik çəkib.**




# 12 il əvvəl bir leyləklə dostlaşıb

### Hər il eyni yerdə, eyni vaxtda balıqçının görüşünə gəlir




**Bursanın Karacabəy bölgəsində balıqçılıqla məşğul olan Adəm Yılmaz 12 il əvvəl bir leyləklə dostlaşıb. Hər il leylək eyni yerdə, eyni vaxtda balıqçının görüşünə gəlir. "Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, balıqçı ilə leyləyin dostluğu dastana çevrilib. Adəm Yılmaz leyləyə Yaren adını verib.**

Yaren leylək Bursanın Karacabəy bölgəsində Uluabat Gölü sahilindəki Əskiqaraağac məhəlləsinin rəmzidir. Onun gəlişini gözləyənlərin gözünü yolda qoymayaraq bu il də göl sahilinə gəlib və balıqçı Adəmin qayığına qonub. Bundan əvvəlsə yerli sakinlər onu göl yaxınlığında yuva qurmuş dişi tayı - Nazlı ilə birlikdə görüblər. Köç mövsümündə leyləklər Əskiqaraağaca gəlib. Leylək barədə danışan Adəm Yılmaz "ayın 6-dan 15-nə qədər öldüm, dirildim; gələcəkmi, gəlməyəcəkmi? Şükürlər olsun, ötənilki tarixdən 11 gün sonra gəldi. Hamını kəndimizə dəvət edirəm. Kənd camaatı çox sevinir, hamımız sevinc içindəyik. Necə xoşbəxt olduğumu



ifadə edə bilmirəm" söyləyən Adəm Yılmaz deyib ki, Əskiqaraağac leyləklərin köç qatarı üstündədir. Hər il burdan minlərlə leylək ötüb keçir. Burda yuva qurub qalanlar da olur. Yarenlə Nazlı onlardan biridir. Kənd camaatı da onları sevir, qoruyur. Adəm Yılmaz illər öncə Yarenin qayığına qonduğunu xatırlayıb: "Dedim, yəqin acdır, tutduğum balıqlardan ona verdim. O vaxtdan dostlaşdıq. Hər il onun gəlişini həyəcanla gözləyirəm". Qeyd edək ki, Karacabəy bələdiyyəsi tərəfindən leyləklərin yuvası yaxınlığında kamera quraşdırılıb, bunun sayəsində leyləklər müşahidə altında saxlanılır.



**Məlahət**



# Bəzi orqanlar olmayanda insan yaşaya bilir

### Lakin bu o demək deyil ki, sağlamlığımıza qarşı diqqətsiz olmalıyıq

**Hansı orqanlar olmadan yaşaya bilərik? Bəzi orqanları çıxarılmış, bəzisi cüt olduğu halda təkliyə məhkum edilmiş (böyrək) orqanizmlər əlbəttə, var. Müəyyən xəstəliklər səbəbindən dalağı, öd kisəsi çıxarılan, mədəsi kiçilən, bağırsaqlarının bir hissəsi kəsilmiş insanlar var. Buna rəğmən həyatdadırlar, yaşayırlar. Mütəxəssislər "insan hansı orqanlar olmadan da yaşaya bilər" sualına cavab verib. İnsanlar tək böyrəklə yaşaya bilər.**

Tək böyrəklə yaşayanların səhhətində ciddi problemlər olmur. Əlbəttə, əgər həkimlərin tövsiyələrinə düzgün əməl edəcəklərsə. Həmçinin ağ ciyərlərdən biri olmasa, insan normal şəkildə həyatına davam edə bilər. Çünki ağ ciyərin bir payı - bir hissəsi olmadıqda digər yarı o birinin yerini dolduracaq ölçüdə şişə bilir. Dalaq qanı süzür və orqanizmdə infeksiyalara qarşı mübarizə aparır. Dalaqda problem yarandıqda əməliyyatla çıxarılır. Lakin bundan sonra insanın sağlamlığına qarşı daha da diqqətli olması, infeksiyalara yaxalanmaması vacibdir. Qadınlar uşaqlıq olmadan da yaşaya bilir. Məsələn, ABŞ-də 60 yaşlı qadınların təxminən üçdə biri qadınlıq orqanı - uşaqlığı çıxarılmış halda yaşayır. Eləcə də yumurtalıqlar, həm qadınlarda, həm də kişilərdə asanlıqla çıxarıla bilir. Mədə xərçəngi zamanı mədə bütünlüklə götürülür. Mədə əvəzinə nazik bağırsaq yemək borusuna birləşdirilir. İnsan yüngül yeməklər yeyir, müalicəvi dərmanlar qəbul edir və həyata davam edir. Yoğun bağırsaq da bəzən kəsilir, bu halda orqanizmdən xaric olunan maddələrin toplanması üçün insanın böyrünə əlavə "çanta" bərkidirlər. Apendisit yoğun bağırsağın ilk hissəsindəki kiçik boru çəkilli orqandır. Apendisitin funksiyası hələ də tam müəyyənləşməyib. Lakin onun da əməliyyatla çıxarıldığına tez-tez rastlanır. Adətən belə hallarda apendesitin partlaya biləcəyinin qarşısını almaq üçün əməliyyat vacib olur. Ürəyin klapanlarını (qulaqcıqlarını) bəzən süni cihazla əvəzləyirlər. Qara ciyər də nə qədər kəsilir, kəsilsin, yenidən özünü bərpa etmək qabiliyyətinə malikdir. Həmçinin öv kisəsi çıxarılmış, lakin həyatına davam edənlər var. Qısası, orqanizm hər hansı orqan olmadan və ya əskik olaraq da yaşaya bilir. Lakin bu o demək deyil ki, sağlamlığımıza qarşı diqqətsiz olmalıyıq. Sağlam həyatla yarımçıq həyat fərqlidir.

**Məlahət**

## Yeni bir araşdırma...

### Oğlan uşağı olan valideynlər daha tez qocalır!



**Heç düşünürdünüzmü oğlan uşaqları qızlara nisbətən valideynləri daha çox qayğılandırır və hətta onların daha tez saçlarının ağarmasına səbəb olur. Yeni bir araşdırma, oğlan uşaqlarının böyüdülməsinin beyni daha sürətli qocaltdığını ortaya çıxarıb.**

Tədqiqatda yaşı 50-dən yuxarı olan 13 mindən çox valideyn iştirak edib. Müvafiq olaraq, ən azı bir oğlu olan valideynlərin daha sürətli qocaldığı aşkar edilib. Məlum olub ki, birdən çox oğlu olanlar idrak qabiliyyətini tək qızı olanlara nisbətən daha tez itiriblər.

ABŞ və Çexiyadan olan tədqiqatçıların rəhbərlik etdiyi araşdırmanın nəticəsi olduqca maraqlıdır. Demə, oğlanların qızlara nisbətən daha az mehriban davranışları valideynlərinin psixi sağlamlığının pisləşməsinə səbəb olur.

Tədqiqat valideynlərin riyaziyyat problemlərini həll etməsi və söz siyahısını oxutdurması ilə həyata keçirilib. Tədqiqatın əvvəlində onların intellekt səviyyələri bərabər olub, lakin araşdırmanın sonunda oğlanların valideynləri başlanğıcdan fərqli olaraq daha az intellektli olduqları müəyyən edilib.

Nyu-Yorkdakı Kolumbiya Universitetindən tədqiqatçı Katrin Volfova deyib: "Ən azı bir oğlu olan valideynlər, oğulları olmayan valideynlərlə müqayisədə daha sürətli koqnitiv geriləmə müşahidə edirdilər. Analarda atalarda olduğu kimi oxşar tendensiyaları müşahidə etdiyimiz üçün nəticələr göstərdi ki, təsirlər bioloji deyil, sosialdı ".

Digər tərəfdən, tədqiqatçılara görə, qızlar oğlanlara nisbətən daha çox emosional və sosial dəstək aldıqları üçün valideynlərin sağlamlığına da müsbət təsir edə bilirlər.

**Turan**

## Xərçəngi müalicə edən bitki tapıldı

### Domuz otu əsasında dərman hazırlanıb



**"Rusiyada xərçəng xəstəliyinin müalicəsi üçün borşovik - domuz otu əsasında dərman hazırlanıb.**

Bu bitki xərçəng hüceyrələrinin özünü məhv etməsinə kömək edir. "Medicina" xəbər verir ki, Mordoviya Dövlət Universitetinin alimləri. N. P. Oqareva, Sosnovskinin borşovik əsasında onkoloji xəstəliklərə qarşı dərman hazırladılar. Tədqiqatçılar bitkidən ultrabənövşəyi radiasiyaya reaksiya verən furanokumarinləri təcrid ediblər. Alimlər izah ediblər ki, bunlar günəş işığına qarşı həssaslığın artmasına səbəb ola biləcək bioloji aktiv birləşmələrdir və ultrabənövşəyi işığın təsiri altında şiş hüceyrələrinin DNT-sinə bağlanır.

Furanokumarinlərin təsiri altında hüceyrələr bölünmə qabiliyyətini itirir və nəticədə özünü məhv edərək ölür. Yeni araşdırmada tədqiqatçılar üç yanaşmanı müqayisə etdilər: şişi çıxarmaq üçün cərrahiyyə, şüa terapiyası və müşahidə. Onkoloqlar əvvəllər aşkar etmişdilər ki, lokallaşdırılmış prostat xərçəngi olan kişilər müalicəyə vaxt ayıra bilirlər.